‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

9 AVQUST ŞƏNBƏ 2025 № 30 (4231) Qiyməti - 60 qəpik www.kaspi.az



## ABŞ PREZİDENTİ DONALD TRAMPIN SÜLHMƏRAMLI SİYASƏTİ DAİM XATIRLANACAQ

# VAŞİNQTONDA TARİXİ RAZILAŞMALAR

Prezident İlham Əliyev: “Əminəm ki, Ermənistan və Azərbaycan barışmaq üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlar da barışacaqlar. Biz qarşıdurma, konfrantasiya və qan tökülməsi olan səhifəni çevirib uşaqlarımıza parlaq və təhlükəsiz gələcəyi təmin edəcəyik”.

### SÜLH PROSESİ İLƏ BAĞLI MÜHÜM GÖRÜŞ

Avqustun 8-də Vaşinqtonda Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı mühüm və tarixi görüş keçirilib. ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona səfər edən Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan mühüm sənədlərə imza atıblar. ABŞ Prezidenti öncə tərəflərlə ayrı-ayrılıqda müzakirələr aparıb.

### “TRAMP CƏNUBİ QAFQAZA SÜLH GƏTİRDİ”

Prezident İlham Əliyev Azərbaycan və Ermənistan xalqlarının sülh şəraitində yaşaya biləcəklərinə ümidvar olduğunu bildirib: “Prezident Tramp Cənubi Qafqaza sülh gətirdi və buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan və Azərbaycan barışmaq üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlar da barışacaqlar”.

SƏHİFƏ 2-də



### ATƏT-İN MİNSK QRUPU LƏĞV EDİLİR

Sənəddə qeyd edilir ki, tərəflər ATƏT-in Minsk Prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin imzalanmasına şahidlik edir.

## “TRAMP MARŞRUTU” ÜÇÜN BÖYÜK İMKANLAR AÇILACAQ

### “NƏHAYƏT, BU GÜN BU, BİTƏCƏK”

“Bir çox vasitəçilər Ermənistan-Azərbaycan münaqişəsinə son qoymağa çalışdılar və hamısı uğursuz oldu. Nəhayət, bu gün bu, bitəcək”, - deyə Donald Tramp bildirib.

### İNVESTİSİYA, RİFAH VƏ SABİTLİK

“Tramp marşrutu” üçün böyük imkanlar açacaq, divarları yıxacaq, bir çox ölkələri birləşdirməyə imkanlar yaradacaq, investisiya, rifah və sabitliyi təmin edəcək sülhü bərqərar edirik”.



İran cəmiyyətindəki ab-havanın carçısı

SƏHİFƏ 4-də



Qeyri-neft ixracında yeni dövr

SƏHİFƏ 6-da



Universitetlərdə təhsil haqları necə olacaq?

SƏHİFƏ 7-də



Sürücülərin və piyadaların skuter problemi

SƏHİFƏ 8-də



Balaca evdən böyük dünyaya

SƏHİFƏ 9-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# VAŞİNQTONDA TARİXİ RAZILAŞMALAR

Prezident İlham Əliyev: "Əminəm ki, Ermənistan və Azərbaycan barışmaq üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlar da barışacaqlar. Biz qarşıdurma, konfrantasiya və qan tökülməsi olan səhifəni çevirib uşaqlarımıza parlaq və təhlükəsiz gələcəyi təmin edəcəyik".

Avqustun 8-də Vaşinqtonda Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı mühüm və tarixi görüş keçirilib. ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona səfər edən Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan mühüm sənədlərə imza atıblar. ABŞ Prezidenti öncə tərəflərlə ayrı-ayrılıqda müzakirələr aparıb. Daha sonra ABŞ, Azərbaycan, Ermənistan liderləri üçtərəfli görüş keçiriblər. "Bir çox vasitəçilər Ermənistan-Azərbaycan münaqişəsinə son qoymağa çalışdılar və hamısı uğursuz oldu. Nəhayət, bu gün bu, bitəcək", - deyə Tramp bildirib. ABŞ Prezidenti qeyd edib ki, "Tramp marşrutu" Azərbaycanın Naxçıvana tam çıxışını təmin edəcək.

### "BİZ BÖYÜK BİR TARİX YAZIRIQ"

Prezident İlham Əliyev Azərbaycan və Ermənistan xalqlarının sülh şəraitində yaşaya biləcəklərinə ümidvar olduğunu bildirib. "Prezident Tramp Cənubi Qafqaza sülh gətirdi və buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan və Azərbaycan barışmaq üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlar da barışacaqlar. Biz qarşıdurma, konfrantasiya və qan tökülməsi olan səhifəni çevirib uşaqlarımıza parlaq və təhlükəsiz gələcəyi təmin edəcəyik. Ona görə də bu gün çox xoşbəxtəm, çünki biz böyük bir tarix yazırıq", - deyə Azərbaycan Prezidenti qeyd edib.

### TRAMPIN SÜLHMƏRAMLI SİYASƏTİ DAİM XATIRLANACAQ

İlham Əliyev bildirib ki, Azərbaycan xalqı bir çox regionlara, o cümlədən Cənubi Qafqaza sülh gətirən ABŞ Prezidenti Donald Trampın sülhməramlı siyasətini daim xatırlayacaq: "Prezident Tramp və onun komandası, yaxın dostumuz cənab Uitkoff olmasaydı, Ermənistan və Azərbaycan yəqin ki, hələ də tükənməyən danışıqlar prosesində ilişib qalacaqdılar. Bu gün biz Qafqazda təkcə regionumuz üçün deyil, həm də Prezident Trampın haqlı olaraq qeyd etdiyi kimi, beynəlxalq sülhə və rifaha aparan "Tramp marşrutu" üçün böyük imkanlar açacaq, divarları yıxacaq, bir çox ölkələri birləşdirməyə imkanlar yaradacaq, investisiya, rifah və sabitliyi təmin edəcək sülhü bərqərar edirik".

Prezident İlham Əliyev Nobel komitəsinə ABŞ Prezidenti Donald Trampla bağlı müraciət etməyi təklif edib.

Ermənistanın Baş naziri Nikol Paşinyan da Vaşinqtonda tarixi anlar yaşandığını qeyd edib: "Bu, bizim ölkələrimiz və regionumuz üçün uğurdur. Dünya da bundan qazanacaq, çünki bu, sülh içində yaşayan bir region və daha ədalətli bir dünya deməkdir". N.Paşinyan bildirib ki, Ermənistan və Azərbaycan ikitərəfli münasibətlər baxımından fundamental bir mərhələyə qədəm qoyur. "Keçmişi keçmişdə qoyaraq irəli baxırıq", - deyə o vurğulayıb.

## Birgə bəyannamədə nələr var?

Görüşdə Prezident İlham Əliyev, Prezident Donald Tramp və Baş nazir Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Vaşinqtonda keçirilmiş görüşünə dair Birgə Bəyannaməni imzalayıblar. Sənəddə deyilir: "Biz, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş Naziri 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində görüşərək, aşağıdakıları bəyan edirik:



Biz və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin tərəflərin xarici işlər nazirləri tərəfindən paraflanmasına şahidlik etdik. Bu kontekstdə, biz Sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davam etdirilməsinə ehtiyac olduğunu qəbul etdik və ölkələrimiz arasında sülhün təmin edilməsi və gücləndirilməsinin vacibliyini vurğuladıq".

## ATƏT-İN MİNSK QRUPU LƏĞV EDİLİR

Sənəddə həmçinin qeyd edilir ki, tərəflər Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin imzalanmasına şahidlik edir:

"Biz ATƏT-in bütün iştirakçı dövlətlərini bu qərarı qəbul etməyə çağırırıq;

Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq edtik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir;

Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik;

Biz BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirik. Dərin insan iztirablarına səbəb olmuş münaqişədən sonra nəhayət ki, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında dövlətlərimizin qonşuluq münasibətlərinin qurulmasına başlaması üçün şərtlər yaradılmışdır. Yenidən təftiş mövzusu olmayan və heç bir zaman olmayacaq bu reallıq dövlətlərimiz arasında düşmənçilik səhifəsinin bağlanmasına yol açır. Biz indi və gələcəkdə hər hansı bir qisas cəhdini qətiyyətlə rədd edir və istisna edirik;

Biz bu Zirvə görüşünün regionda qarşılıqlı hörmət və sülhün irəlilədilməsi üçün möhkəm təməl təşkil edəcəyinə əminliyimizi ifadə edirik;

Biz bu vacib Zirvə görüşünə ev sahibliyi çərçivəsində səmimi qonaqpərvərliyə və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ikitərəfli əlaqələrin normallaşdırılmasının irəlilədilməsinə vacib töhfələrinə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa dərin minnətdarlığımızı ifadə edirik".

# OKEANIN O TAYINDAN GƏLƏN REAKSİYA

**ABŞ-nin əvvəlki administrasiyasından fərqli olaraq Tramp dönəmində Vaşinqton qələbə sayəsində Bakının regionda yaratdığı reallıqları qəbul edir. Bu, həm də Ağ Ev rəhbərinin güclü və qətiyyətli lider portretinə sahib dövlət başçılarına xüsusi rəğbətinin göstəricisi sayılır.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyevin Vaşinqtona səfəri, həmkarı Donald Trampla keçirdiyi ikitərəfli görüş və müzakirələr Azərbaycan-ABŞ münasibətlərində yeni bir səhifənin açılması kimi dəyərləndirilir. Uzun illər ərzində ikitərəfli əlaqələrdə müşahidə olunan enişli-yoxuşlu gəlişmələr əslində iki dövlət arasında əməkdaşlıq sahələrinin konkretləşməsi və maraqların hansı istiqamətlər üzrə üst-üstə düşdüyünü müəyyənləşdirmək baxımından da zəngin təcrübə hesab edilir.

Avqustun 8-də Vaşinqtonda Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu imzalanıb.

Prezident İlham Əliyev bildirib ki, imzalanan memorandum Azərbaycan qarşısında geniş imkanlar açır: "Bayden dövrünü ikitərəfli münasibətlər üçün itirilmiş sayıram. Trampla görüş faydalı oldu. Onun Azərbaycan haqqında bilgiləri çox yaxşıdır".

Dövlət başçısı qeyd edib ki, 907-ci düzəlişin ləğvi tarixi hadisədir.

Qeyd edək ki, səfərin ilk günündə Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffla görüşüb. Dövlət başçısı İlham Əliyevin və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanıb. Sənədi Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və "ExxonMobil" şirkətinin vitse-prezidenti Con Ardill imzalayıblar.

### ÜST-ÜSTƏ DÜŞƏN ORTAQ MƏQAMLAR

2024-cü ildən etibarən ABŞ tarixində ikinci Donald Tramp dönəminin başlaması tək Vaşinqtonun dünya siyasətinə baxışlarının dəyişməsi ilə yadda qalmadı, həm də beynəlxalq səviyyədə ayrı-ayrı regionlar üzrə cərəyan edən geosiyasi proseslərin axarına da ciddi təsir etdi. Tramp hakimiyyətə gəldiyi ilk gündən dünyada müharibələrin sonlandırılması tezisini irəli sürərək, bu istiqamətdə konkret addımlar atmağa başladı. Məlum yanaşma Azərbaycanın da milli maraqları və siyasi xətti ilə uyğunluq təşkil edir. İki dövlətin liderinin siyasətlərində qarşılıqlı maraqlarının üst-üstə düşdüyü ortaq nöqtələri aşağıdakı kimi ümumiləşdirə bilərik:

- Sülh və sabitliyin təmini, münaqişələrin dinc yolla həlli,
- Qlobal inteqrasiya fonunda enerji təhlükəsizliyinə xüsusi diqqətin ayrılması,
- Beynəlxalq tranzit dəhlizlərin formalaşdırılması və inkişaf etdirilməsi,
- Güclü dövlət konsepsiyası,
- Təhlükəsizlik və terrorizmə qarşı mübarizə,
- Ənənəvi ailə modelinin, milli dövlət anlayışının gücləndirilməsi və s.



## İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRDƏ ƏN ÖNƏMLİ FAKTOR

Bu gün müstəqil Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə özünün ən parlaq dönəmini yaşayır. 44 günlük Vətən müharibəsi və bir günlük antiterror tədbirlərindən sonra suverenliyimizin tam olaraq bərpa edilməsi, 30 illik işğal faktına son qoyulması güclü milli dövlət konsepsiyasının təməlini təşkil edir. ABŞ-nin əvvəlki administrasiyasından fərqli olaraq, Tramp dönəmində Vaşinqton qələbə sayəsində Bakının regionda yaratdığı reallıqları qəbul edir. Bu, həm də Ağ Ev rəhbərinin güclü və qətiyyətli lider portretinə sahib dövlət başçılarına xüsusi rəğbətinin göstəricisi sayılır. Bu amil Bakı-Vaşinqton münasibətlərindəki yeni mərhələdə də ən önəmli faktorlardan biri sayılır.

### ƏMƏKDAŞLIQ ÜÇÜN ƏSAS İSTİQAMƏTLƏR

İkitərəfli əməkdaşlıqda yeni mərhələ əslində dövlət başçılarının qarşılıqlı məktublaşması ilə başlayıb. Hər iki tərəf keçən müddətdə bu mərhələnin daha uğurlu və hədəfə istiqamətlənən olduğunu müəyyənləşdirmək üçün gərgin iş aparıb. Əslində Bakı-Vaşinqton münasibətlərində prioritet sahələr Prezident İlham Əliyevin Donald Trampın qələbəsi münasibəti ilə ona göndərdiyi təbrik məktubunda qeyd edilmişdi. "Biz Birləşmiş Ştatlar ilə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ikitərəfli tərəfdaşlığımızı bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, təhlükəsizlik, enerji, yaşıl və rəqəmsal keçid və digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindəyik", - dövlət başçısı bildirib. Bu vurğu Bakının Vaşinqtonla əlaqələri dərinləşdirmək və daha bir üst səviyyəyə çıxarmaq üçün güclü və qətiyyətli siyasi iradəyə malik olduğunu göstərməklə yanaşı, həm də Azərbaycanın qarşılıqlı əlaqələrə dair strateji baxışını əks etdirirdi. Bu strateji baxışın əsasında qarşılıqlı inam və etimad, bərabər səviyyəli hörmətə əsaslanan yanaşma dayanır.

## VAŞİNQTONDAN SUVERENLİYİMİZƏ TAM DƏSTƏK

Bakının bu çağırışına okeanın o tayından gələn reaksiya da adekvat idi. Donald Tramp Müstəqillik Günü ilə bağlı Azərbaycan Prezidentinə təbrikində Vaşinqtonun Bakı ilə münasibətlərə dair baxışlarını ortaya qoydu. "Biz Azərbaycan Respublikası ilə əlaqələrimizi və terrorizmə qarşı mübarizədə, enerji təhlükəsizliyinin inkişafında, qonşunuzla sülhə nail olmaq istiqamətində ABŞ ilə tərəfdaşlığınızı yüksək qiymətləndiririk. 30 ildən artıq diplomatik münasibətlərimiz müddətində əlaqələrimiz əhəmiyyətli dərəcədə inkişaf edib. Biz ümidvarıq ki, ikitərəfli prioritetlərimiz, o cümlədən təhlükəsizlik sahəsində əməkdaşlığımız, iqtisadi münasibətlərimiz və enerji inkişafı üzrə tərəfdaşlığımız bundan sonra da davam edəcək", - Ağ Ev rəhbəri qeyd edirdi.

Əslində Bakı-Vaşinqton əlaqələrinin gücləndirilməsinin, yeni əməkdaşlıq meyllərinin artmasının əsasında Tramp administrasiyasının Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı sərgilədiyi mövqe xüsusi yer tutur. "Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır". Ağ Ev rəhbərinə məxsus bu fikirlər Trampın qarşılıqlı əlaqələrdə Azərbaycan üçün ən mühüm məqam sayılan suverenliyimizə hörmət prinsipinə hansı münasibət sərgilədiyinin göstəricisidir. Əvvəlki adminstrasiyadan fərqli olaraq, yeni reallığı qəbul edən Vaşinqton Bakı ilə təmaslarını məhz Prezident İlham Əliyevin müəyyənləşdirdiyi prinsiplər üzərində qurur. Dövlət başçısının Ağ Evə dəvət olunması, Vaşinqtonda aparılan müzakirələr ABŞ-Azərbaycan münasibətlərinin gələcək inkişaf konturlarını da müəyyən etdi.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# İRAN CƏMİYYƏTİNDƏKİ AB-HAVANIN CARÇISI

Prezident Məsud Pezeşkianın oğlu Yusif Pezeşkianın Azərbaycanla münasibətlərə dair kifayət qədər cəsarətli çıxışı İran cəmiyyətindəki ab-havanın carçısıdır. Oğlu kimi Pezeşkianın özü də Azərbaycanla münasibətlərə dair reallıqla ayaqlaşan, konyunktura zidd bəyanatlar verməkdədir.





RÜSTƏM QARAXANLI

İsrail-İran hərbi münaqişəsindən sonra rəsmi Tehranın xarici siyasət ritorikasındakı dəyişikliklər hiss edilməyə başladı. İran rəsmiləri əvvəlkindən fərqli olaraq, açıqlamalarında aqressivlik tonunu xeyli yumşaltmağa məcbur oldular. Çünki nə təzyiq rıçaqları əvvəlki kimidir, nə diplomatik alətlər, nə də hərbi resurslar. 12 günlük müharibədən sonra həm siyasi quruluşun, həm də cəmiyyətdəki münasibətlər sisteminin dəyişilməsinə ciddi ehtiyacın duyulmasına dair bəyanatların hətta klerikal rejimin ən mühafizəkar təmsilçiləri tərəfindən də səsləndirilməsi onu göstərir ki, İran ciddi islahatlar astanasındadır.

### İSLAHATÇILAR, YOXSA MÜHAFİZƏKARLAR?

Hadisələrin İran dövlətçiliyi üçün hansı ssenari ilə cərəyan edəcəyini zaman göstərəcək. Ancaq indidən aşkar şəkildə görünür ki, Tehrandakı idarəçilər mühafizəkar və islahatçı cəbhələrə bölünüblər. İran yaxın gələcəkdə ikincilərin təklif etdikləri hərtərəfli liberallaşma yolu ilə də gedə bilər, mühafizəkarların təzyiqləri ilə dəyişiklərsiz də keçinər. Ancaq nə vaxtadək?

İranın daxilində təhlükəsizliklə bağlı ciddi boşluqlar var. Ağır sosial-iqtisadi durumu da əlavə etsək, ölkədə dərin və hərtərəfli islahatların həyata keçirilməsi üçün zəminin yetişdiyini deyə bilərik. Real dəyişikliklərə start verilməsi mövcud narazılıqları müvəqqəti olaraq neytrallaşdıra bilər. Yox, əgər Tehranda mühafizəkarların xətti üstün olarsa, gedişat hətta qiyam və sistem dəyişikliyi uğrunda mübarizəyə də yol açar.

### XARİCİ SİYASƏTİN İFLASI

İsraillə müharibə göstərdi ki, İranın hətta müsəlman aləmində də lazımi nüfuzu yoxdur. Digərlərinə yuxarıdan aşağı baxma, təhdid ritorikasına üstünlük ölkənin real təcridinə səbəb olub. Bunu ən çox hiss edən dövlətlərdən biri də elə Azərbaycandır. Bu baxımdan, əgər söhbət islahatlardan gedirsə, bu prosesin mütləq xarici siyasəti də əhatə etməsi başlıca şərtdir.

İran qonşularına qarşı, xüsusilə Azərbaycanla münasibətlərdə təhdidedici, eqoist tərzi ilə nəyə sahib oldu? İran əhalisini çoxsaylı sosial, iqtisadi, siyasi problemlərlə yanaşı, məhz bu sual da maraqlandırır.

Bunun aşkar əlamətləri artıq özünü büruzə verir. Özü də aşağılarda deyil, hakimiyyətin ən üst qatında. Prezident Məsud Pezeşkianın oğlu Yusif Pezeşkianın Azərbaycanla münasibətlərə dair kifayət qədər cəsarətli çıxışı İran cəmiyyətindəki ab-havanın carçısıdır: "Bəziləri mütəmadi olaraq "Azərbaycan müharibədə İsrailə yardım edirdi" ifadəsini işlədir. Bu cür iddia irəli sürməzdən əvvəl bu açıqlamaları təsdiq edən sənəd və sübutları araşdırmaq lazımdır. Kəşfiyyat və təhlükəsizlik xidməti bu barədə məlumat veribmi? Azərbaycanda yaşayan iranlılardan hər hansı məlumat təqdim edilibmi? Azərbaycanın İranla müharibədə İsraili dəstəklədiyinə dair hansı sübutlar var? Təhlükəsizlik orqanları bunu təsdiq etməyiblər. Növbəti mərhələdə bu açıqlamanın ölkəmizə nə gətirəcəyini aydınlaşdırmaq lazımdır. Azərbaycanla münasibətlərimizin gərgin olmasını istəyirikmi?"

## Azərbaycanla münasibətlərdə yeni səhifə açılacaqmı?

Bu yanaşmanın hətta İranın prezidentinin ailəsində hakim olması onu göstərir ki, eyni məzmunlu sual daha geniş kütlələri – sıravi vətəndaşları da maraqlandırır. Azərbaycanın İran üçün sıradan bir qonşu olmaması məsələni daha da ciddiləşdirir. Ölkə əhalisinin böyük bir qismi azərbaycanlılardan ibarətdir. İranın siyasi, ictimai, iqtisadi, mədəni həyatının ən müxtəlif sferalarında təmsil olunan soydaşlarımızın sual vermək və cavab tələb etmək haqları var. Bu gün İranın prezidentinin azərbaycanlı olmasının özü kifayət qədər ciddi və qabarıq göstəricidir. Ən azı bu amil onu ehtimal etməyə əsas verir ki, İran dəyişmək qərarına gələrsə, atılacaq ilk addımlarından biri Azərbaycanla münasibətlərə yenidən baxılması olmalıdır. Rəsmi Tehranın xarici siyasətinin Azərbaycan istiqamətində hələ İsraillə müharibədən öncə dəyişikliyin hiss edilmədiyini iddia etmək müəyyən mənada haqsızlıq olardı. Bu reallıq təbii ki, ilk növbədə Prezident Məsud Pezeşkianın şəxsiyyəti ilə bağlıdır. Dövlət başçısı Azərbaycan türküdür və onun eyni xalqa, adət-ənənələrə malik olduğu bir dövlətə qarşı son illərdə nümayiş etdirilən haqsız yanaşmaya biganə qalma ehtimalı yox idi. Əslində, bu, onun tək şəxsi vizyonu da deyil, ictimai sifarişdir.

## Oğlu kimi Pezeşkianın özü də...

Pezeşkianın oğlunun kifayət qədər aktual bir məsələyə belə qəlbən və səmimiyyətlə toxunması prezident ailəsində hakim olan ab-havanın bariz göstəricisidir. Oğlu kimi Pezeşkianın özü də Azərbaycanla münasibətlərə dair konyunktura zidd bəyanatlar verməkdədir. Onun xüsusilə Bakıya və Xankəndiyə səfərlərdən sonra Azərbaycanla münasibətlərə yenidən baxılmasına dair qorxmaz çağırışlarının tarixi əhəmiyyəti var. Məsələn, müharibə günlərində guya Azərbaycanın İsrailə "kömək etməsi" barədə feyk məlumatları İranda ilk təkzib edən elə Prezident Pezeşkian olub. Onun İranın təhlükəsizlik orqanlarının bu məlumatları təsdiqləmədiyini deməsi, bu mövzuda aparılan qızışdırıcı polemikanın kökündən kəsilməsinə yol açdı.



### DƏYİŞİKLİK MÖVCUDLUQ MƏSƏLƏSİ VƏ SOSİAL SİFARİŞDİR

Baş verənlər göstərir ki, gələcəkdə İranda köklü dəyişikliklər qaçılmazdır. İrandakı ictimai-siyasi münasibətlər islah olunmalıdır və köhnəlmiş, insan hüquqları və texnoloji tərəqqi səbəbindən aktuallığını itirmiş dəyərlər sistemi aradan qaldırılmalıdır. Çünki bu sistem daxildəki müqavimət qarşısında aciz qaldıqca, xaricdəkilərlə münasibətlərdə daha da aqressivləşir.

Dəyişiklik tələbi bugünkü İranın mövcudluq məsələsi və sosial sifarişdir. Bu tələb artdıqca mühafizəkar-islahatçı bölgüsü daha da dərinləşəcək. Bu fikir ayrılığı indi tək sırf siyasi dəhlizlərin reallığı deyil, İranın sadə kütlələri də durumun fərqindədir. İran tarixi çox siyasi təlatümlər görüb, odur ki, vaxtında qəbul edilməmiş qərar baha başa gələ bilər. Bu kontekstdə Azərbaycanla münasibətlərin sahmana salınması əlahiddə vacib çağırışdır.

# MƏRKƏZİ ASİYA DÖVLƏTLƏRİ VAHİD İTTİFAQ YOLUNDA

Mərkəzi Asiya ölkələri artıq problemləri öz aralarında həll edir, Rusiya asılılığından qurtulmaq istiqamətində addımlar atırlar. Liderlər sentyabrda Daşkənddə keçiriləcək görüşdə vahid Mərkəzi Asiya İttifaqının formalaşdırılması perspektivini də müzakirə edə bilərlər.






AZƏR NURİYEV

Mərkəzi Asiya regionu getdikcə beynəlxalq aləmdə söz sahibinə çevrilir. Region ölkələri arasında inteqrasiya sürətlənir, üçüncü tərəfin iştirakı olmadan müstəqil qərarlar qəbul edilir. Vaxtilə imperiyalar arasında bufer zona olan Mərkəzi Asiya ölkələri onilliklərdir davam edən problemləri öz aralarında həll edir, Rusiya asılılığından qurtulmaq istiqamətində addımlar atırlar. Avropa İttifaqı ölkələri ilə əməkdaşlıq da yüksələn xətlə inkişaf edir, ən yüksək səviyyədə qarşılıqlı səfərlərin sayı artır.

### QUTERREŞİN QAZAXISTAN SƏFƏRİ

Bugünlərdə BMT-nin Baş katibi Antonio Quterreşin Qazaxıstana səfəri də bölgə üçün önəmli hadisələrdəndir. Prezident Kasım-Jomart Tokayev ilə Qazaxıstanda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin (SDGs) Mərkəzi Asiya və Əfqanıstan üzrə regional mərkəzinin yaradılmasına dair saziş imzalanıb. Bu tədbir həm Qazaxıstan, həm də BMT üçün böyük əhəmiyyət kəsb edir və qlobal xəritədə mühüm aktor kimi formalaşmaqda olan Mərkəzi Asiyanın əhəmiyyəti haqqında bütün beynəlxalq ictimaiyyətə verilən güclü siqnal rolunu oynayır. İmzalanmış sənəd Qazaxıstanla BMT arasında uzunmüddətli və səmərəli əməkdaşlıqda mühüm mərhələnin təməlini qoyur.



Antonio Quterreş

### QARŞILIQLI SƏFƏRLƏR İNTENSİVLƏŞİB

Bölgə dövlətləri arasında qarşılıqlı səfərlər də intensivləşib. Məsələn, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev avqustun 6-da Türkmənistana səfər edib. Tokayev BMT-nin dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə Üçüncü Konfransına qatılıb. Bundan əlavə, Bişkek regionda kəskinləşən su qıtlığı fonunda Özbəkistan və Qazaxıstan liderlərini qəbul etməyə hazırlaşır. Sentyabr region üçün əsas ay olmağı vəd edir. Belə ki, Daşkənddə Mərkəzi Asiya ölkələri başçılarının görüşü keçiriləcək. Gözlənilir ki, su məsələsi iclasın əsas mövzusu olacaq - Aral dənizinin quruması və Xəzər dənizinin dayazlaşması mövzuları da müzakirəyə çıxarılacaq. Liderlər Tacikistan və Türkmənistanın hələlik ehtiyatla yanaşdığı vahid Mərkəzi Asiya İttifaqının formalaşdırılması perspektivini də müzakirə edəcəklər.

## STRATEJİ ƏMƏKDAŞLIĞA DOĞRU

Ötən həftənin sonlarında Qazaxıstan və Özbəkistanın xarici işlər nazirliklərinin rəhbərləri Murat Nurtleu və Baxtier Saidov Qırğızıstan Prezidenti Sadır Japarovla danışıqlarda ticari-iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, Kambar-Ata SES-1 və Çin-Özbəkistan-Qırğızıstan dəmir yolunun tikintisi kimi böyük miqyaslı dövlətlərarası layihələrin həyata keçirilməsini müzakirə ediblər. Müzakirələrdə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Bişkekə gözlənilən səfərlərinin hazırlanmasına xüsusi əhəmiyyət verilib. Prezident Tokayevin Bişkekə səfəri ikitərəfli əməkdaşlığın əsas mexanizmi olan Ali Dövlətlərarası Şuranın yeddinci iclası ilə əlamətdar olacaq. İyulun sonunda Tokayev Qırğızıstanla müttəfiqlik münasibətlərinin dərinləşdirilməsi haqqında müqaviləni ratifikasiya edib.

Qazaxıstan artıq 2022-ci ilin dekabrında Özbəkistanla oxşar müttəfiqlik münasibətləri qurub və regional inteqrasiyaya can atdığını nümayiş etdirib. Tokayevin sözlərinə görə, "region ölkələri konstruktiv ikitərəfli və çoxtərəfli dialoq qurublar" və münasibətlərini "dərinləşdirilmiş strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə" çıxarıblar.

Ekspertlər istisna etmirlər ki, Özbəkistan və Qırğızıstan arasında oxşar müttəfiqlik münasibətləri haqqında müqavilə artıq Şavkat Mirziyoyevin Bişkekə səfəri zamanı imzalana bilər. Sərhəd məsələlərinin tənzimlənməsindən sonra Özbəkistanla münasibətlərin müttəfiqlik səviyyəsinə qaldırılması ilə bağlı Prezident Japarovun təklifi var. 2024-cü ildə Daşkənd və Düşənbə artıq oxşar münasibətlər formatı qurublar.

Müttəfiqlik münasibətlərinin fəal şəkildə qurulması və birgə strateji layihələrin müzakirəsi ölkələrin əməkdaşlığı gücləndirmək, bəlkə də vahid iqtisadi-siyasi blok formalaşdırmaq istəyindən xəbər verir ki, bu da bütün region üçün yeni perspektivlər açır. Rusiya ekspertləri dərhal məsələyə öz prizmalarından yanaşmağa tələsiblər. İddia etməyə başlayıblar ki, regionda liderlik uğrunda mürəkkəb oyun başlaya bilər.



## TACİKİSTAN VƏ TÜRKMƏNİSTANIN MÖVQEYİ

Regional əməkdaşlıq məsələləri digər ölkələrə də aiddir. Məsələn, regionun ən kasıb dövləti olan Tacikistan da bu sırada olmağa çalışır. Bu ölkə daha az müzakirə olunan, lakin son dərəcə vacib istiqamət üzrə - nadir torpaq elementləri resursları üzrə qlobal marağın mərkəzindədir. Ölkə strateji metal yataqları ilə zəngindir: niobium, tantal, litium, berillium, sezium, serium qrupu metalları. Tacikistan Prezidentinin Qırğızıstana elan edilməmiş son səfərinə gəldikdə, istisna deyil ki, Prezident Japarovla danışıqlarda Mərkəzi Asiya İttifaqının yaradılması perspektivi də müzakirə olunub. Bu, Tacikistanın, eləcə də Türkmənistanın xeyli skeptik yanaşdığı bir layihədir.

Türkmənistana gəlincə, Aşqabad öz ölkəsinin neytral mövqeyini əsas tutaraq, hələlik regional proseslərdə fəal iştirakdan çəkinir. Lakin bölgə ekspertlərinin fikrincə, əgər Aşqabad yanaşmasını yenidən nəzərdən keçirsə, bu, vahid Mərkəzi Asiya İttifaqının yaradılması istiqamətində təkan olacaq.

Beləliklə, Mərkəzi Asiya tarixi inkişafının kritik mərhələsinə qədəm qoyur.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# QEYRİ-NEFT İXRACINDA YENİ DÖVR

**2025 yanvar-iyun**

**$ 1,8 milyard** Dəyər

**2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 9.9% çox**

Qeyri-neft sektoru üzrə ixrac potensialımız genişlənir. Bunu statistik göstəricilər də təsdiqləyir. Ekspertlər artım tempinin qorunması üçün bəzi zəruri addımların atılmalı olduğunu bildirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"na əsasən, 2025-ci ilin yanvar-iyun aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 9.9 faiz artaraq 1,8 milyard ABŞ dolları təşkil edib. 2025-ci ilin yanvar-iyun aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 7,4 milyon ABŞ dolları və ya 54,4 faiz, kimya sənayesi məhsulları 48,7 milyon ABŞ dolları və ya 38,7 faiz, meyvə-tərəvəz 81,2 milyon ABŞ dolları və ya 24,3 faiz, pambıq iplik 1,8 milyon ABŞ dolları və ya 16,6 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 5,1 milyon ABŞ dolları və ya 12,5 faiz, çay 62,5 min ABŞ dolları və ya 2 faiz, alüminium və ondan hazırlanan məmulatlar 666,8 min ABŞ dolları və ya 0,7 faiz artıb. Cari ilin ilk altı ayı ərzində aqrar məhsulların ixracı 21.9 faiz artaraq 455,2 milyon ABŞ dolları, aqrar-sənaye məhsullarının ixracı isə 7.7 faiz artaraq 145 milyon ABŞ dollarına bərabər olub. Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında pomidor (tomat) (149 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl (144 milyon ABŞ dolları) ikinci, pambıq (98,6 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb. Rəqəmlərdən də göründüyü kimi qeyri-neft sektoru inkişaf edir. Bəs bu inkişaf davamlı ola bilərmi? Bunun üçün daha hansı addımlar atılmalıdır?



Cəfər İbrahimli



## "Sanksiyalar bizim üçün müsbət nəticə verib"

İqtisadçı Cəfər İbrahimli deyir ki, ixrac rəqəmlərinə baxdıqda əsas diqqət çəkən aqrar və aqrar sənaye məhsullarıdır. Onlarda daha çox artım müşahidə olunur. Bu artımları stimullaşdıran səbəblər var: "Onlardan biri dövlət dəstəyidir. Dövlət sahibkarlara uzunmüddətli güzəştli kreditlər, subsidiyalar ayırır. On ilə yaxındır daxili istehsal dəstəklənir. Rusiya bazarının mövcud vəziyyəti də artıma təsir edən amillərdəndir. Qonşu ölkəyə qarşı tətbiq olunan sanksiyalar bizim üçün müsbət nəticə verib. Artım müsbətdir və davamlı görünür. Son illərdə dövlətin dəstəyi, investisiyaların qoyulması və xarici bazarlarda məhsullarımıza olan tələbat bunu təmin edib".

C.İbrahimlinin sözlərinə görə, qeyri-neft məhsullarının ixracındakı artım müvəqqəti tendensiya deyil: "Bunun da səbəbi dəstəyin olmasıdır. Bu məhsullar illərdir ixrac olunur, bazar var, investisiyalar qoyulub. Şərtlər dəyişməsə, ixracın davamlılığı gözlənilləndir. Bazarların şaxələndirilməsi üçün də işlər görülür. Azərbaycan məhsulları digər ölkələrdə tanıdılır. Həmçinin yeni ixrac müqavilələri bağlanılır. Körfəz ölkələrinə daha çox üstünlük verilir. Bunlar da qeyri-neft ixracının artım səviyyəsinin qorunub saxlanmasına kömək edir".

### "İXRACIN DAVAMLI OLMASI GÖZLƏNİLƏNDİR"

İqtisadçının fikrincə, aqrar sahə ilə bağlı emal sənayesini inkişaf etdirmək lazımdır. Aqrar sənaye məhsullarının ixracının artırılması istiqamətində tədbirlərin aparılması da uzunmüddətli perspektivdə daha çox imkanlar açar: "Qızıl və digər aqrar sənayeyə aid olmayan məhsulları illərdir ixrac edirik. Xaricdə məhsullarımıza kifayət qədər ehtiyac var. Bu baxımdan gələcəkdə də ixracı şərtləndirən vəziyyət mövcuddur. Bu tipli istehsal sahələrinə kifayət qədər investisiyalar qoyulub və yetəri qədər ixrac da mövcuddur. Bu səbəbdən gələcəkdə də ixracın davamlı olması gözləniləndir. İstehsalı da artırmalıyıq. Bu zaman daxili bazarın da təminatını ödəyə bilərik".

## "İxrac potensialımızı daha da artırmalıyıq"

İqtisadçı Akif Nəsirli isə qeyri-neft sektorunun hələ də zəif inkişaf etdiyi qənaətindədir: "Artım var, amma hələ ki, nisbi görünür. Sektor hələ çox zəifdir. Ona görə də azacıq irəliləyiş belə faiz göstəricisində böyük görünür. Lakin bəzi məhsulların ixracında irəliləyiş var. Artımın səbəbi dövlət dəstəyidir. Digər səbəb sahibkarların daha çox cəhd göstərməsidir. Fermerlər daxili istehsalı artıraraq ixraca yönəlməyə çalışırlar".

İqtisadçı bildirdi ki, bu artım müvəqqəti xarakter də daşıya bilər. Çünki qeyri-neft sektoruna dəstək zəifdir: "Bu sektorun inkişafı üçün əsaslı addımlar atılmalıdır. Bu tempi saxlamaq və artırmaq üçün fundamental dəyişikliklər aparılmalıdır. Bu sektoru da inkişaf etdirmək istəyiriksə, hər bir fermerin ucuz vəsaitə, kreditə əlçatanlığı olmalıdır. Fermerlər üçün güzəştli kreditlərin həcmi və əlçatanlığı artırılmalıdır. Amma hələ ki, bu, mümkün deyil. Azad rəqabət mühitinin yaradılmasına çalışmaq lazımdır. Sahibkarlığın qarşısında dayanan maneələr aradan qaldırılmalıdır. Əgər bunlar edilərsə, sektorun inkişafı üçün münbit şərait yarana bilər. Qısa zamanda qeyri-neft sektorundan gələn gəlirlər neft sektoru həcmində olar".

A.Nəsirli ixrac protensialımızı daha da artırmağın vacibliyindən də bəhs etdi: "Daxildə məhsul bolluğu yaratmalıyıq ki, ixrac potensialımız daha da artsın. Bunun üçün də istehsal güclənməlidir. Kənd təsərrüfatı sahəsində dünya standartlarına uyğun məhsul istehsalını təmin etmək üçün işlər aparmalıyıq. Belə olduğu halda pomidoru ancaq Rusiyaya ixrac etmək məcburiyyətində qalmayacağıq. Həmçinin Avropa ölkələrinə ixracımızı inkişaf etdirə bilərik. Bunu yalnız fermerə dəstəklə əldə etmək mümkün deyil. Həm də fermerləri maarifləndirməliyik. Onlara daha orqanik məhsulların yetişdirilməsini öyrətməliyik. Bu zaman qeyri-neft sektorunu daha da inkişaf etdirmiş olarıq".



Akif Nəsirli

# UNİVERSİTETLƏRDƏ TƏHSİL HAQLARI NECƏ OLACAQ?



**2025/2026-cı tədris ilindən etibarən Azərbaycanın bir sıra ali təhsil müəssisələrində təhsil haqlarında artım olacaq. Universitetlər təhsil haqqının artırılmasını təhsil xidmətlərinin maya dəyərinin artması ilə izah edirlər. Valideyn və tələbələr isə narahatdırlar.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

2025/2026-cı tədris ilindən etibarən Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) bakalavriat və magistratura səviyyələrində illik təhsil haqqı artırılıb. Magistratura səviyyəsində MBA proqramının ixtisaslaşmaları üzrə isə təhsil haqqı 2 500 AZN-dən 2700 AZN-ə, bakalavriat və magistratura səviyyələrində təhsil haqqı məbləği 2300 AZN-dən 2400 AZN-ə qaldırılıb. Artım yeni tədris ilində ADPU-ya qəbul olan tələbələrə şamil olunacaq.

Ali təhsil müəssisələri təhsil haqqının artırılmasını dəyişən sosial-iqtisadi tələblər, təhsil xidmətlərinin maya dəyərinin artması ilə izah edirlər. Valideyn və tələbələr isə artımdan narahatdırlar.

Biz də bəzi ali məktəblər arasında sorğu keçirərək 2025/2026-cı tədris ilində təhsil haqlarının artıb-artmayacağı ilə maraqlandıq.

### BDU: "TƏHSİL HAQLARINDA ƏHƏMİYYƏTLİ DƏYİŞİKLİK NƏZƏRDƏ TUTULMUR"

Bakı Dövlət Universitetinin (BDU) mətbuat katibi Kəmalə Namazova sorğumuza cavab olaraq bildirdi ki, 2025/2026-cı tədris ili üzrə BDU-da təhsil haqları ilə bağlı hər hansı əhəmiyyətli dəyişiklik nəzərdə tutulmayıb: "Bu qərar ali təhsilin maliyyə baxımından əlçatanlığının təmin edilməsi, eləcə də tələbələrin və onların ailələrinin sosial-iqtisadi vəziyyətinin nəzərə alınması məqsədi ilə qəbul edilib".

ADA Universitetinin mətbuat xidmətindən bildirildi ki, universitetdə təhsil haqqında artım gözlənilmir: "ADA-da ən aşağı ödənişli ixtisas Qazaxda tədris olunan Təlim və tədrisin metodikası üzrə magistr proqramıdır ki, təhsil haqqı 2500 AZN təşkil edir. Ən yüksək ödənişli ixtisas isə Biznesin idarəedilməsi üzrə magistr proqramıdır - 8.500 AZN".

## TİBB İXTİSASI 6500 AZN, STOMATOLOGİYA 6000 AZN

Azərbaycan Tibb (ATU) Universitetinin mətbuat xidmətindən verilən məlumata görə, ödənişli təhsildə ixtisaslar üzrə təhsil haqqı aşağıdakı kimi müəyyənləşdirilib: "Tibb ixtisası üçün 6500 AZN, stomatologiya ixtisası üçün 6000 AZN, əczaçılıq, fizioterapiya, ictimai səhiyyə və tibb bacısı ixtisasları üçün isə 5000 AZN olaraq dəyişdirilib".

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) mətbuat xidmətindən sorğumuza "təhsil haqlarının ilə bağlı məlumatı tədris ili başlayandan sonra biləcəyik", - deyə cavab verildi. Təhsil haqları isə bakalavriat səviyyəsi üçün 2000-2500, magistratura səviyyəsi üçün 2500-3000 AZN arasında dəyişir.

Azərbaycan Texniki Universitetinin (AzTU) mətbuat xidmətinin rəhbəri Sevinc İsgəndərova bildirdi ki, onlarda təhsil haqqı ötən il olduğu kimi qalır. AzTU-da ixtisaslar üzrə ən aşağı təhsil haqqı 1900 AZN, ən yüksək təhsil haqqı isə 2200 AZN-dir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) də yeni tədris ili üçün heç bir ixtisas üzrə təhsil haqqı artımı nəzərdə tutulmayıb. Universitetin mətbuat katibi Şəhanə Müşfiqin sözlərinə görə, bütün ixtisaslar üzrə təhsil haqları sabit qalıb: "Universitetdə "ən aşağı" və "ən yuxarı" ayırımı yoxdur. Bütün ixtisaslar üzrə ödəniş eynidir".

### UNEC-DƏ DƏ QİYMƏT ARTIMI OLMAYACAQ

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnarə Məmmədova onlarda da təhsil haqlarının artırılmadığını bildirdi: "Ən yüksək ödənişlər UNEC Biznes məktəbinin bəzi ixtisaslarındadır, ən az ödəniş isə qiyabi təhsil üzrədir".

Qeyd edək ki, UNEC-də bakalavriat səviyyəsi üzrə təhsil haqları 1700-2100 AZN arası dəyişir. Magistratura pilləsi üzrə ödənişli əsaslarla təhsil alanların illik təhsil haqqı məbləği Azərbaycan və rus bölmələri üzrə 2200-5000 AZN, ingilis və türk bölmələri üzrə 2300-5000 AZN-dir.

Azərbaycan Dillər Universitetinin (ADU) ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cavid Zeynallı da təhsil haqları ilə bağlı hər hansı yenilik olmadığını bildirdi.

Xəzər Universitetinin ictimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəylinin sözlərinə görə, təhsil ocağında 2025/26-cı tədris ili üzrə qəbulda heç bir səviyyə üzrə artım nəzərdə tutulmayıb. İxtisaslar üzrə təhsil haqları isə 4000-5000 AZN-dir.

Azərbaycan-Fransız Universitetinin (UFAZ) ictimaiyyətlə əlaqələr üzrə meneceri Xülya Cəfərova bildirdi ki, UFAZ-da II ixtisas qrupu üzrə ixtisaslarda təhsil haqqı 2500, I ixtisas qrupu üzrə isə 2200 AZN-dir. Keçən tədris ilində də ən yüksək məbləğ 2500 AZN olub. Magistratura pilləsində də təhsil haqqı keçən il olduğu kimidir - 2500-3000 AZN.




## BÖLGƏ UNİVERSİTETLƏRİNDƏ TƏHSİL HAQLARI NECƏDİR?

Lənkəran Dövlət Universitetinin (LDU) ictimaiyyətlə əlaqələr və mətbuat xidmətinin rəhbəri Esmira İsmayılovanın verdiyi məlumata görə, LDU-da 2025/2026-cı tədris ili üzrə həm bakalavriat, həm də magistratura səviyyəsinin bəzi ixtisasları üzrə təhsil haqlarında artım var. Bakalavriat səviyyəsinin ixtisasları üzrə ən aşağı təhsil haqqı məbləği 1450 AZN (keçən il 1300 AZN), ən yüksək təhsil haqqı 2000 AZN (keçən il 1800 AZN) təşkil edir.

Magistratura səviyyəsinin ixtisasları üzrə ən aşağı təhsil haqqı məbləği 1800 AZN (keçən il 1700 AZN), ən yüksək təhsil haqqı 2000 AZN (keçən il 2000 AZN) təşkil edir.

Naxçıvan Dövlət Universitetinin (NDU) Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kifayət Mahmudova NDU-da 2025/2026-cı tədris ili üçün təhsil haqqı artımı olduğunu bildirdi: "Bizdə ən aşağı təhsil haqqı 1000 manat təşkil edir ki, bu da xarici dil müəllimliyi (fransız, alman, rus dili) ixtisaslarındadır. Tibb ixtisası (2700 AZN) universitetdə ən yüksək təhsil haqqı olan ixtisasdır".

Mingəçevir Dövlət Universitetinin (MDU) ictimaiyyətlə əlaqələr şöbəsinin mütəxəssisi Qurban Qurbanzadənin sözlərinə görə, universitetdə istər 2024/2025-ci tədris ili, istərsə də cari tədris ilində təhsil haqqında artım olmayıb: "Universitetdə təhsil haqları fakültə və ya ixtisas fərqi olmadan standartdır. Bakalavriat səviyyəsi üzrə əyanidə 1600, qiyabidə 1400, magistratura səviyyəsində 1700 və MBA təhsilində isə 2000 AZN".

# SÜRÜCÜLƏRİN VƏ PİYADALARIN SKUTER PROBLEMİ

Skuter sürənlərin yol hərəkəti qaydalarını pozması qəza risklərini artırır. Vəziyyət o həddə çatıb ki, artıq Baş Dövlət Yol Polisi İdarəsi buna reaksiya verib və skuterlə hərəkət edənlərə xəbərdarlıq edib.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son illərdə Azərbaycanda, xüsusilə də paytaxt Bakıda elektrikli skuterlər və velosipedlər şəhər nəqliyyatında alternativ vasitə kimi geniş yayılıb. Bu nəqliyyat vasitələrinin sürətlə artması müsbət hal olsa da, təhlükəsizliklə bağlı yeni problemlər də yaradıb. Skuter sürənlərin yol hərəkəti qaydalarını pozması, piyadalarla eyni səkiyə çıxması, sükan arxasında qoruyucu vasitələrdən istifadə etməməsi və sürət həddini aşması qəza risklərini artırır. Vəziyyət o həddə çatıb ki, artıq Baş Dövlət Yol Polisi İdarəsi buna reaksiya verib və skuterlə hərəkət edənlərə xəbərdarlıq edib.



Foto: Rüfət Mikayılov - Global Photostock

**Skuter sürücüləri qayda pozduqda 40 manat cərimələnirlər**

**Digər şəxsə və ya avtomobilə zərər dəyərsə, 150 manat cərimə nəzərdə tutulur**

### SKUTER SÜRÜCÜLƏRİNƏ CƏRİMƏLƏR TƏTBİQ OLUNUR?

Nəqliyyat eksperti Eldəniz Cəfərov deyir ki, skuterlər hazırda qanunvericilikdə "kiçik elektrik nəqliyyat vasitəsi" kimi tanınır. Onlar üçün ayrıca yol zolaqları tələb olunmur, velosiped zolaqları eyni zamanda bu tip elektrik vasitələrinin də hərəkəti üçün nəzərdə tutulub: "Əsas istifadəçi qrupu gənclərdir və təəssüf ki, onların bir qismi bu vasitələrə əyləncə obyekti kimi yanaşır, yol hərəkəti qaydalarını isə ya bilmirlər, ya da gözardı edirlər. Halbuki bu cihazlar artıq əyləncə vasitəsi yox, rəsmi nəqliyyat vasitəsi statusu alıb və onlara qarşı qanunla müəyyən cərimələr tətbiq olunur. Belə ki, skuter sürücüləri qayda pozduqda 40 manat, əgər bu pozuntu nəticəsində digər şəxsə və ya avtomobilə zərər dəyərsə, 150 manat cərimə nəzərdə tutulur. Bu da göstərir ki, məsuliyyət yalnız avtomobil sürücülərinin deyil, bütün yol istifadəçilərinin üzərindədir".

### SKUTERLƏ BAĞLI SADƏ, AMMA VACİB QAYDALAR

E.Cəfərovun sözlərinə görə, skuter sürənlərin əksəriyyəti sadə qaydalara əməl etmirlər: "Halbuki bu qaydalar onların öz təhlükəsizliyi və yol hərəkətində nizamın qorunması üçün nəzərdə tutulub. Skuterləri avtomobil yolunun sol və orta zolağında idarə etmək qəti qadağandır, yalnız avtomobil yolunun sağ zolağı ilə hərəkət etmək olar. Əgər velosiped zolağı varsa, ondan istifadə etmək tövsiyə olunur. Günün bütün saatlarında skuterin həm önündə, həm də arxasında fənərlər işlək vəziyyətdə olmalıdır. Skuter, velosiped və ya mopedlə sərnişin daşımaq qadağandır, bu vasitələr yalnız bir nəfər üçün nəzərdə tutulub".

### EFFEKTİV VƏ REAL YANAŞMA

Skuter sürücüləri üçün qeydiyyat, sığorta və ya lisenziya sistemi tətbiq olunması məsələsinə gəldikdə isə, mütəxəssis vurğulayır ki, skuter üçün qeydiyyat nömrəsi tətbiq etmək müəyyən problemlərə yol aça bilər: "Çünki bu, velosipedlərə də eyni tələbin qoyulmasını gündəmə gətirər və praktik baxımdan məntiqsiz görünər. Daha effektiv və real yanaşma maarifləndirmədir. Skuter sürənlər yol hərəkəti qaydaları barədə məlumatlandırılmalıdır. Skuteri icarəyə verən şirkətlər sürücüləri təlimatlandırmalı və mobil tətbiq vasitəsilə razılaşma formasını təsdiqlətməlidir. İstifadəçi tətbiqdə qaydaları oxuyub təsdiqlədikdən sonra skuterdən istifadə edə bilməlidir. Şəhər daxilində skuterin maksimal sürəti 15 km/saat ilə məhdudlaşdırılmalıdır. Bu, qəzaların və ağır nəticələrin qarşısını ala bilər".



Eldəniz Cəfərov

Fərhad Eyyubov

## Yol iştirakçıları üçün ciddi təhlükə

Texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Fərhad Eyyubov isə deyir ki, problemin kompleks şəkildə həm şəhərsalma, həm də nəqliyyat planlaşdırması səviyyəsində həllinə ehtiyac var: "Ümumilikdə, Bakı şəhərində nəqliyyat problemləri müəyyən qədər nəzərə alınaraq həll olunmağa çalışılır. Şəhərin tarixi və qədim struktura malik olması səbəbindən, nəqliyyatın planlaşdırılması əvvəldən düzgün şəkildə qurulmayıb. Son dövrlərdə mikromobillik məsələləri velosipedlər, skuterlər və s. aktuallaşıb. Amma bu yanaşma daha çox şəhərin mərkəzi hissəsində özünü göstərir və ümumi nəqliyyat sistemində əsaslı dəyişiklik yaratmır".

Alim vurğulayır ki, velosiped və skuter zolaqları təhlükəsizlik təmin ediləcək şəkildə planlaşdırılmalıdır: "Hazırda bu zolaqlarda hərəkət edən velosiped və skuter sürücülərinin təhlükəsizliyi yetərincə qorunmur. Onların əksəriyyəti təhlükəsizlik üçün nəzərdə tutulan xüsusi geyim və qoruyucu vasitələrlə təmin olunmur. Bu isə həm onların özləri, həm də digər yol iştirakçıları üçün ciddi təhlükə yaradır. Şəhərin mərkəzində yaradılan zolaqlar müəyyən dərəcədə rahatlığı təmin etsə da, əslində böyük təhlükə potensialı daşıyır və bu problem gələcəkdə daha da dərinləşə bilər. Hazırda bu nəqliyyat vasitələrinə maraq nisbətən azdır, lakin yaxın gələcəkdə, xüsusilə müəyyən yaş qrupları arasında artacağı gözlənilir. Bu insanlar isə yol hərəkəti qaydalarını mütləq bilməli və onlara ciddi şəkildə əməl etməlidirlər".

## Nəqliyyat axınında xaotik vəziyyət

F.Eyyubovun sözlərinə görə, nəqliyyat axınına son illərdə skuterlər və velosipedlərin də əlavə olunması xaotik vəziyyət yaradır: "Bakıda nəqliyyat axını müəyyən struktura malikdir. Şəhərdaxili ictimai nəqliyyat xüsusi avtobus zolaqları ilə hərəkət edir. Şəxsi avtomobillər, kommersiya və xüsusi nəqliyyat vasitələri isə özlərinə məxsus idarəetmə prinsipi ilə yol şəbəkəsində iştirak edirlər. Bu axına skuterlər və velosipedlərin də əlavə olunması nəqliyyat axınında müəyyən xaotik vəziyyət yaradır. Çünki skuter və velosipedlərin hərəkəti digər nəqliyyat vasitələrinin hərəkətindən həm texniki, həm də hüquqi baxımdan fərqlidir. Onlar çox zaman sərbəst və qaydalara uyğun olmayan şəkildə hərəkət edirlər. İctimai nəqliyyatın məqsədi, marşrutu və fəaliyyət prinsipi aydındır, şəxsi və kommersiya nəqliyyatı da müəyyən qaydalara tabedir. Amma skuterlər və velosipedlərdən istifadə edənlərin əksəriyyəti bu vasitələrdən istirahət, əyləncə və ya qısa məsafəli hərəkət üçün yararlandığından onların hərəkəti sistemli və məqsədyönlü şəkildə tənzimlənmir. Bu isə şəhər nəqliyyatında nizamsızlıq və təhlükə yaradır".

## "Bu sahədə normativ baza yoxdur"

Fəlsəfə doktoru vurğulayır ki, statik formada çəkilən velosiped zolaqları vizual baxımdan səliqəli görünə bilər, amma real istifadədə təhlükəsizlik və səmərəlilik təmin olunmayıbsa, bu, risk doğurur: "Velosipedçilərin hərəkəti üçün nəzərdə tutulan yollar bəzi ölkələrdə tam təchiz olunub: xüsusi zolaqlar çəkilib, onlara aid işıqforlar quraşdırılıb. Eyni zamanda, bu hərəkətin hüquqi çərçivəsi də müəyyənləşdirilib. Təəssüf ki, Azərbaycanda bu sahədə kifayət qədər normativ baza və infrastruktur mövcud deyil".

# BALACA EVDƏN BÖYÜK DÜNYAYA

**Kopenhagendəki Andersen Muzeyi dünyada böyük nağılçıya həsr olunmuş ilk muzeylərdən biridir. Burada ən müasir avadanlıq, o cümlədən kitabxana fonduna qoşulmuş multimedia ekranları var. Muzeyin eksponatları yazıçının bütün həyat yolunu əhatə edir.**

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

























Odens - köhnə balaca evləri, gözəl yaşıl parkları, maraqlı muzeyləri və möhtəşəm sarayları olan füsunkar küçələrlə əhatələnən şəhərdir. Skandinaviya tanrısı Odinin şərəfinə adlandırılan şəhər min il əvvəl qurulub. Amma şəhəri dünyada daha çox tanıdan böyük nağıl ustası Hans Xristian Andersenin doğulduğu yer olmasıdır.

Odens - Kopenhagendən 2 saatlıq məsafədədir. Dəmiryol stansiyasından çıxıb kiçik rəngli avtobusa yaxınlaşıb muzeyin ünvanını soruşuram. Bu şəhərdə "hop on-hop off" avtobusları turistləri pulsuz gəzdirir. Sürücü muzeyin yerləşdiyi əraziyə yaxın yerdə saxlayır: "Buradan düz gedin, muzey qarşınızda olacaq!"

### KASIB AİLƏNİN YEGANƏ ÖVLADI

Andersen Muzeyi ilə yazıçının doğulduğu ev bir-birinə yaxın məsafədə yerləşir. Bir biletlə hər ikisini gəzmək mümkündür (Muzeyə giriş bileti 28 AZN-dir). Hər gün muzeyi yüzlərlə insan ziyarət edir. Muzeydə ən müasir avadanlıq, o cümlədən kitabxana fonduna qoşulmuş multimedia ekranları, Andersenin nağıllarını dinləmək üçün çoxsaylı məntəqələr var.

Andersenin doğulduğu ev çox kiçikdir, bir neçə balaca otaqdan ibarətdir. Bu balaca ev dünyaya dahi bir yazıçı bəxş edib. Kasıb ailənin yeganə övladı Hans bu balaca otaqlarda böyüyüb. Çəkməçi atası dünyadan köçəndən sonra evlərdə paltar yuyan anasına kömək etmək üçün erkən yaşlarında işləməyə başlayıb. Ancaq yaşadığı həyatın sərtliyi onun nağıllar uydurmasına mane ola bilməyib. O, uydurduğu nağılları danışmağı və adamları inandırmağı xoşlayırmış. Həyatla döyüşərkən ağlına da gəlməzdi ki, bir gün bu nağıllar kitab səhifələrinə köçəcək, teatrların səhnəsinə çıxacaq, sərhədlər aşacaq. Bütün dünya "Çirkin ördək balası", "Çaxmaq daşı", "Qalay əsgər", "Düyməcik", "Su pərisi", "Qar kraliçası", "Kralın təzə libası", "Noxud üstündə yatmış şahzadə qız"dan bəhs edəcək...

### DAHİ NAĞILÇIYA HƏSR OLUNMUŞ İLK MUZEY

Andersen Muzeyi 1908-ci ildə açılıb. Bu, dünyada böyük nağılçıya həsr olunmuş ilk muzeylərdən biridir. Muzeyin eksponatları yazıçının uşaqlıq illərindən, kasıb bir çəkməçinin oğlu olduğu dövrdən başlayaraq bütün həyat yolunu əhatə edir.

Sonradan muzey əşyaları müasir muzey binasına köçürülüb. Yapon memarı Kenqo Kuma və muzey dizaynı üzrə konsaltinq şirkəti "Event Communications" Andersen Muzeyi üçün yeni "Nağıl evi" konseptinin layihələndirilməsi üzrə beynəlxalq müsabiqədə qalib gəlir.

### BİR NEÇƏ TEMATİK HİSSƏYƏ BÖLÜNÜR

Qeyri-adi muzey sərgisi bir neçə tematik hissəyə bölünür. "Əsr" - Andersenin dövründən bəhs edir. "İnsan" - yazıçının özü haqqında, zahiri görkəmindən tutmuş xarakter xüsusiyyətlərinə, vərdişlərinə qədər eksponatlardan ibarətdir. "Həyat" və "İş" sərgilərindən əlavə, yazıçının vizual yaradıcılığına həsr olunmuş ayrıca "İncəsənət" sərgisi də maraq doğurur: burada nağılçının rəsmləri və kəsilmiş kağız siluetləri yer alıb. Ekspozisiyada yazıçının kağızdan fiqurlarını kəsmək üçün istifadə etdiyi nəhəng qayçı nümayiş etdirilir. Onların ölçüsünü və fiqurların təfərrüatını nəzərə alsaq, Andersenin nəinki nəhəng yaradıcılığa, həm də heç də az səbrə malik olmadığı aydın olur.

Muzeydə ən maraqlı salonlardan biri "Çevrilmələr" sərgisidir. Bu sərginin əsas ideyası ondan ibarətdir ki, Andersenin mətnlərini sadəcə oxumaq yox, hiss etmək və yaşamaq lazımdır. Təşkilatçılar bu zalda ən müasir proyeksiya texnologiyası və audiosistemin köməyi ilə nağılın mahiyyətini və ab-havasını sözsüz çatdırmağa çalışıblar. Bu qalereyada 1838-ci ildən başlayaraq nağılçının əsərləri üçün yaradılmış illüstrasiyalar nümayiş etdirilir. Xüsusilə Salvador Dalinin "Çirkin ördək balası" böyük maraq doğurur.

### NAĞILÇININ TƏNHA HƏYATI

Nağılçının yaradıcılıq yolunun bütün mərhələləri - oxuduğu məktəb, Kopenhagendəki çətin illər, yazıçı kimi debütü eksponatlarda ətraflı əks olunub. "Pyeslər, səyahətnamələr, romanlar və şeirlər də yazmasına baxmayaraq, Andersen daha çox nağıllarına görə tanınır. Onun nağılları 100-dən çox dilə tərcümə edilib. Andersen ümumilikdə 170 nağıl, 5 roman, bir neçə pyes, şeir və oçerk müəllifidir", - deyə muzeydə yazıçının yaradıcılığı haqqında səs yazısı səsləndirilir.

Muzeyə ekskursiya ziyarətçilərə məşhur yazıçının necə insan olduğunu anlamaq imkanı verir. Yazıçının öz əli ilə çəkilmiş orijinal rəsmləri də sərginin qiymətli eksponatlarıdır.

Muzeydə ayrıca otaqda yerləşən "Nyhavn" zalı yazıçının Kopenhagendə, Nyhavn küçəsi 18 nömrəli evdə - son mənzilindəki kabinetini əks etdirir. Otağın daxili hissəsi 1874-cü ilin fotoşəkilləri üzərində diqqətlə bərpa edilib və buradakı bütün mebellər, eləcə də bəzi şəxsi əşyalar yalnız yazıçıya məxsus orijinal eksponatlardır.

Bundan əlavə, muzeydə 1929-cu ildə tamamlanan dəyirmi "Xatirə zalı" var. Onun divarları 1930-cu ildə Niels Larsen Stevns tərəfindən rənglənib. Ziyarətçilərə Andersenin həyatından hekayələri təsvir edən, onun tərcümeyi-halından götürülmüş "Həyatımın nağılı" adlı səkkiz böyük freska təqdim olunur. Eləcə də yazıçının həyatının daha çox şəxsi tərəfləri - həyatındakı qadınlar, çoxsaylı səyahətləri eksponatlar arasında yer alıb: "Andersenin həyatında bir neçə gözəl qadın olub. Amma o, bütün həyatını tənha keçirib. Nağılçı həyatdan tənha və bədbəxt bir insan olaraq köçüb. Andersen 1875-ci il avqustun 4-də qaraciyər xərçəngindən vəfat edib.

# Milli Qəhrəmanın xatirə muzeyi açılıb

Samux rayonunun Alıuşağı kəndində Milli Qəhrəman Hökumə Əliyevanın doğum günü qeyd edilib. Tədbirdə Milli Qəhrəmanın ailə üzvləri, yaxınları, AZAL nümayəndələri, həmkarları və rəsmi şəxslər iştirak ediblər.



Samux rayonunun Alıuşağı kəndində Milli Qəhrəman Hökumə Əliyevanın doğum günü münasibətilə tədbir təşkil olunub. Həmçinin H.Əliyevanın ailəsinin təşəbbüsü ilə kənddə Milli Qəhrəmanın xatirəsinə yaradılan muzeyin açılış mərasimi keçirilib.

Tədbirdə Milli Qəhrəmanın ailə üzvləri, yaxınları, AZAL nümayəndələri, həmkarları və rəsmi şəxslər iştirak ediblər.

Qeyd edək ki, yaşasaydı, avqustun 8-də Hökümə Əliyevanın 34 yaşı tamam olacaqdı. Milli Qəhrəman Kəlbəcər rayonunun Susuzluq kəndində anadan olub. O, 1993-cü ildə Kəlbəcər rayonunun işğalından sonra ailəsi ilə birlikdə Samux rayonunun Alıuşağı kəndində məskunlaşıb. Sonra ailə quraraq Bakı şəhərində yaşamağa başlayıb. H.Əliyevanın valideynləri və qardaşı hazırda Samux rayonunun Alıuşağı kəndində yaşayırlar.

**ÖLMƏZLİK QAZANAN QƏHRƏMAN**

Milli Qəhrəmanın atası Cəlil Əliyev "Report"a qızının onun üçün ölməzlik qazanan bir qəhrəman olduğunu bildirib. O, qızının həlak olduğu təyyarə qəzasının səbəbkarlarının qanun qarşısında cavab verəcəklərinə inandığını vurğulayıb: "Qızım Hökumənin mənim ürəyimdə yeri əbədidir. Hökumənin onsuz keçirdiyimiz bu doğum gününü ürəyimdə qeyd edirəm. O, mənim üçün ölməzlik qazanan bir qəhrəmandır. Məlum hadisənin səbəbkarlarının qanun qarşısında cavab vermələrini istəyirik və inanıram ki, dövlətimiz buna nail olacaq. Başda Prezidentimiz olmaqla, bizə dəstək olan hər kəsə təşəkkürümü bildirirəm. Milli Qəhrəman Hökumə Əliyevanın xatirəsinə göstərilən hörmətə görə hamıya minnətdaram".

Xatırladaq ki, H.Əliyeva dekabrın 25-də Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olub. Prezident İlham Əliyevin 29 dekabr 2024-cü il tarixli Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına və "Qızıl Ulduz" medalına layiq görülüb.

## "Heyət üzvlərinin qəhrəmanlığı qeyd olunmalıdır"

Yeri gəlmişkən, H.Əliyevanın doğum günü münasibətilə Samux rayonunda keçirilən tədbirdə iştirak edən AZAL-ın vitse-prezidenti İlham Əmirov təyyarə qəzası ilə bağlı son məlumatları açıqlayıb. "İlkin nəticələr Aktauda qəzaya uğrayan təyyarəyə kənardan müdaxilə edildiyini təsdiqləyib", - o deyib.

Vitse-prezident qeyd edib ki, H.Əliyeva ilə yanaşı, qəzaya uğrayan təyyarənin uçuş heyətinin bütün üzvləri qəhrəmanlıq göstəriblər: "Bu gün özü olmadan doğum gününü qeyd etdiyimiz Milli Qəhrəman Hökumə Əliyeva, həqiqətən, böyük qəhrəmanlıq göstərib. AZAL-a məxsus sərnişin təyyarəsinin havada ciddi zərər görməyinə baxmayaraq, uçuş heyəti böyük fədakarlıq göstərərək mümkün qədər az itki ilə təyyarəni idarə edə biliblər. İdarəetməsi çətinləşən təyyarəni 1 saat 10 dəqiqə havada saxlamaq böyük peşəkarlıq tələb edir. Ona görə də heyət üzvlərinin qəhrəmanlığı qeyd olunmalıdır".



# Azərbaycanlı alim insan genini musiqiyə çevirir

Dünyada ilk dəfə olaraq azərbaycanlı alim elmlə incəsənətin birləşməsində, insan genomunun mürəkkəb quruluşunu musiqiyə çevirib. Pensilvaniya Universitetinin azərbaycanlı əməkdaşı Dr. Həsən Babazadə "FTIR əsaslı genomik DNT-nin səsləndirilməsi - ritmik allellərin səs düzülüşü" adlı məqaləsində Furye transformasiyalı infraqırmızı spektroskopiyadan istifadə edərək, genom DNT-sini səs landşaftlarına çevirən ritmik allellərin səs düzülüşü adlı riyazi-kibernetik konseptual platforma yaradıb. Alim daha sonra toplanan DNT interferoqramlarını çoxmərhələli MIDI transformasiyası prosesi vasitəsilə fleyta, viola və faqotdan ibarət trio kamera musiqisi parçasına bəstələyib. Layihədə periferik qan mononuklear hüceyrələrdən alınan gen DNT-si materialı son spektroskopik texnologiyalar vasitəsilə təhlil edilib, vibrasiya məlumatları səs tembri, ritm və dinamika kimi musiqi elementlərinə çevrilib. Tədqiqat DNT-nin molekulyar vibrasiyalarını eşidilən nümunələrə çevirməklə, genomikanın görünməyən dünyası ilə insan idrakını birləşdirir və genlərin quruluşu ilə bağlı gizli xüsusiyyətləri üzə çıxarır. Sağlam və mutasiyaya uğramış genlərin fərqini ayrı-ayrı melodiyalar kimi eşitməyi və ya incə genom dəyişikliklərini səs vasitəsilə aşkar etməyə imkan yaradır. Bu interdissiplinar yanaşma biologiya, genetika, bioinformatika və bədii yaradıcılığı birləşdirərək tədqiqat, təhsil və hətta həyatın təməl daşları olan genlərdən ilhamlanmış musiqi üçün yeni alətlər təklif edir.

# "NAR" YÜKSƏK NƏTİCƏ GÖSTƏRƏN ABİTURİYENTLƏRİ MÜKAFATLANDIRACAQ

Ölkənin sərfəli mobil operatoru "Nar" dövlət qəbul imtahanlarında ümumi qruplar üzrə ən yüksək nəticə toplayan ilk 10 abituriyenti mükafatlandıracağını elan edib. Belə ki, mobil operator tərəfindən tələbələrə daha rahat ünsiyyət üçün müasir smartfonlar, prestijli "Nar" mobil nömrələri və 700 AZN məbləğində balans təqdim ediləcək. Layihənin məqsədi universitet həyatına yeni başlayan gənclərin nailiyyətlərinə töhfə vermək və ali təhsilə daha yüksək həvəslə yanaşmalarına dəstək olmaqdır.

Xatırladaq ki, "Nar"ın bu ənənəsi 2018-ci ildən qəbul imtahanlarında maksimal bal yığan tələbələrin mükafatlandırılması ilə başlayıb.




Təhsil hər bir sahə üzrə dayanıqlı inkişafın və səmərəli fəaliyyətin başlıca zəmanəti olduğundan elmin inkişafına dəstək "Nar"ın əsas korporativ sosial məsuliyyət istiqamətlərindən biridir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Üç əsrin qəzeti Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1673
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# BANKLARIN MƏNFƏƏTİ NİYƏ AZALIB?



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Ekspertlərin fikrincə, banklar depozit cəlb etmək üçün faiz xərclərini sürətli şəkildə artırırlar. Bu da faiz marjasının daralmasına səbəb olur. Başqa sözlə desək, depozitlər üzrə yüksək rəqabət fonunda mənfəətlərin azalması müşahidə olunur.**

Bu ilin əvvəlindən başlayaraq, Azərbaycan banklarının mənfəətləri azalıb. Belə ki, 2025-ci ilin yanvar-may aylarında banklar 430,7 mln. manat xalis mənfəət əldə edib. Bu, ötən ilin eyni dövrünə nisbətən 17,1 faiz azdır. Sektorun əməliyyat mənfəəti isə 3,3 faiz azalaraq 708,2 mln. manat təşkil edib. Azalma rəqəmlərdən aydın şəkildə görünür. Bəs səbəblər nədir?

### ARTAN XƏRCLƏR, AZALAN MƏNFƏƏT

Maliyyə və bank məsələləri üzrə ekspert İsmayıl Məmmədovun sözlərinə görə, bankların mənfəətinin azalmasının səbəbləri müxtəlifdir: "Səbəblərdən biri faiz gəlirləri və marjaların daralması ola bilər. Bankların faiz gəlirləri əvvəlki illə müqayisədə artmaqda davam etsə də, faiz xərclərinin daha sürətli artması faiz marjasının daralmasına səbəb olub. Bu, xüsusilə depozitlər üzrə yüksək rəqabət fonunda müşahidə olunur. Mərkəzi Bankın uçot dərəcəsini aşağı salması (hazırda 7.75 faiz) pulun maya dəyərini azaltsa da, banklar bu şəraitdə depozit cəlbi üçün müştərilərə daha cəlbedici faizlər təklif etməyə məcbur olublar. Bu isə faiz gəlirləri ilə faiz xərcləri arasındakı fərqi azaldıb".

İ.Məmmədovun fikrincə, bankların xərcləri də çoxalıb: "Rəqəmsallaşma və struktur xərclərinin artımı da əsas səbəblərdəndir. Sektor üzrə ümumi əməliyyat xərclərində artım müşahidə olunur. Xüsusilə də IT infrastrukturuna yatırımlar və rəqəmsal transformasiya xərcləri əhəmiyyətli dərəcədə yüksəlib. Sektorun rəqəmsallaşma səviyyəsi 2024-cü illə müqayisədə 15-20 faiz artıb. Bu da infrastruktur və texnologiyaya çəkilən xərclərdə əks olunur. Bu, qısamüddətli mənfəətə təsir etsə də, bankların uzunmüddətli dayanıqlılığı və səmərəliliyi üçün strateji zərurətdir. Əməkhaqqı və insan kapitalı xərcləri də artıb. Əmək bazarındakı təzyiqlər, xüsusilə qanunlara əməl olunmasına nəzarət edən şöbə, pul yuyulmasının qarşısını alan sistem və risk idarəetməsi sahələrində ixtisaslı kadrlara tələbin artması ilə nəticələnib. Statistika göstərir ki, bank sektorunda orta əməkhaqqı son bir ildə 12-15 faiz artıb. Bu da əməliyyat xərclərinin artmasına və mənfəətin azalmasına təsir edən əsas amillərdəndir".


İsmayıl Məmmədov




### KREDİTLƏRİN YARATDIĞI PROBLEM

Bank eksperti bildirdi ki, kredit portfeli və ehtiyatlar da mənfəətə təsir edir: "Banklar bu dövrdə kredit portfellərində risklərə qarşı daha konservativ yanaşma sərgiləyiblər. Problemli və gecikmiş kreditlərin həcmi artmasa da, restrukturizasiya olunmuş (ödəniş vaxtının uzadılması, faiz dərəcələrinin aşağı salınması və bir hissəsinin və ya hamısının bağışlanması kimi tədbirlərə məruz qalan kreditlər) kreditlərin payı yüksəlib. Bu da potensial risklərə qarşı ehtiyatların artırılması ilə nəticələnib. Kreditin qaytarılmaması halında bu ehtiyatlardan istifadə olunur. Məsələn, bir çox banklarda problemli kreditlər üçün ayrılan ehtiyatlar əvvəlki ilə nisbətən 10-12 faiz artıb ki, bu da xalis mənfəətin azalmasına birbaşa təsir edir. 2025-ci ilin ilk yarısında qeyri-neft sektorunda artım templəri aşağı düşüb, istehlak kreditləri və mikro-biznes kreditlərinə tələbdə müəyyən durğunluq müşahidə olunub. Mərkəzi Bankın statistikalarına görə, istehlak kreditlərində artım tempi 2024-cü ilin eyni dövrü ilə müqayisədə təxminən 35 faizdən 20 faizə düşüb. Bu da kredit gəlirlərinin proqnozdan aşağı düşməsinə səbəb olub".

İ.Məmmədovun fikrincə, 2025-ci ilin ilk beş ayındakı xalis mənfəət azalması böhranın deyil, struktur dəyişikliklərin və sektoral tənzimləmələrin nəticəsidir: "Bu proseslər bank sektorunu daha şəffaf, dayanıqlı və texnologiya yönümlü hala gətirir. Qısa müddətli mənfəət təzyiqlərinə baxmayaraq, uzunmüddətli perspektivdə sektorun maliyyə dayanıqlılığı və xidmət keyfiyyəti daha güclü olacaq. Qısa müddətdə bankların bu mənfəət azalmasını kompensasiya etmək üçün komissiya və xidmət haqlarında artıma getməsi mümkündür, xüsusilə rəqəmsal kanallar və kart məhsulları üzrə. Kredit faizlərində isə yaxın dövrdə ciddi dəyişiklik gözlənilmir, çünki artıq marjalar kifayət qədər sıxılmış vəziyyətdədir".

## "MƏNFƏƏTİN BİR HİSSƏSİNİ İNVESTİSİYA XƏRCLƏRİNƏ AYIRIBLAR"

İqtisad elmləri üzrə fəlsəfə doktoru Altay İsmayılov isə mənfəətin azalmasının kreditlərlə bağlı olmadığı qənaətindədir: "Qeyd edilən dövr ərzində kredit faizlərində elə də dəyişiklik olmadığını görürük. Yəni mənfəətin azalması kreditlərlə bağlı deyil. Səbəb riskli kreditlər portfelinin artması ola bilər. Riskli kreditlər artdığı zaman bu, bankların likvidliyinə, mənfəətinə mənfi təsir göstərir. Digər tərəfdən, əməliyyat mənfəəti də 3,3 faiz azalıb. Bu da ümumi mənfəət azalmasına təsir edir. İnvestisiya xərclərinin artması da digər bir səbəbdir. Banklar qazandıqları mənfəətin bir hissəsini yeni investisiya xərclərinə ayırmış ola bilərlər. Son zamanlar bankların depozit faizlərini qaldırdıqlarını da görürük. Bu, daha çox pul cəlb etmək niyyəti ilə edilir. Statistika da göstərir ki, vətəndaşların depozitləri üçün ödənilən faizlər artırılıb".


Altay İsmayılov

# BAKIDA RƏQABƏT, BÖLGƏLƏRDƏ BOŞLUQ




**2023/2024-cü tədris ili üzrə müəllimlərin işə qəbulu müsabiqəsində 6081 gənc müəllim uğur qazanaraq ümumi təhsil müəssisələrinə işə qəbul edilib. Onlardan 1768-i H1, 1775-i isə H2 tətbiq edilən məktəblərə qəbul olunub.**

SEVİNC ABBASOVA

Təhsil sistemində ən çox narahatlıq doğuran məsələlərdən biri məktəblərdə müəllim çatışmazlığıdır. Paytaxt və böyük şəhərlərdə müəllim vakansiyalarına yüksək rəqabət müşahidə olunsa da, regionlarda bunun əksini görürük. Xüsusilə də kənd məktəblərində müəllim çatışmazlığı var. Düzdür, bu problemin həlli üçün müəyyən təkliflər verilib, müxtəlif layihələrin icrası həyata keçirilib. Maraqlıdır, icra olunan layihələr özünü nə dərəcədə doğruldub? Bu istiqamətdə son durum necədir?

### GÖRÜLƏN TƏDBİRLƏR KİFAYƏT DEYİL

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov bildirir ki, bölgələrdə müəllim çatışmazlığı problemi uzun müddətdir davam edir və getdikcə daha qabarıq şəkildə özünü göstərir: "Biz gələcəkdə bu problemin daha da dərinləşdiyinin şahidi olacağıq. Bəzi stimullaşdırıcı addımlar atılıb, lakin görünən odur ki, bu tədbirlər kifayət etmir. Bu sahəni necə daha effektiv şəkildə stimullaşdıra biləcəyimizi yenidən nəzərdən keçirməliyik".

Onun sözlərinə görə, önləyici addımlar atılmasa, problem gələcəkdə daha geniş miqyas alacaq: "Müəllim peşəsinə marağı artırmaq üçün real və ciddi addımlar atılmasına böyük ehtiyac var. Əks halda, regionlarda keyfiyyətli təhsil təminatı ciddi şəkildə risk altına düşə bilər".



Ceyhun Məmmədov

Elmin Nuri

## MÜƏLLİMLƏR UCQAR BÖLGƏLƏRƏ GETMƏK İSTƏMİRLƏR

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, elm və təhsil məsələləri üzrə tədqiqatçı Elmin Nuri hesab edir ki, Azərbaycanda ümumilikdə müəllim çatışmazlığı problemi mövcud deyil. Onun fikrincə, əsas problem bəzi bölgələrdə, xüsusilə də ucqar kəndlərdə müəllimlərin yerləşdirilməsində yaranan çətinliklərlə bağlıdır: "Əgər hər il keçirilən MİQ müsabiqəsində vakant yerlərə uğur qazanan namizədlərin nisbətinə baxsaq, bu fərq daha aydın görünür. Məsələn, coğrafiya fənni üzrə hansısa regional təhsil idarəsinin ərazisində 20 vakant yer ayrılır. Lakin imtahanda bu fənn üzrə 300-400 namizəd yüksək nəticə toplayır. Onlardan 100-ə qədəri isə çox yüksək nəticə göstərir. Amma nəticədə yalnız 20 nəfər işə qəbul olunur, digərləri isə gözləmə mövqeyində qalır. Bu vəziyyət ölkədə kifayət qədər təcrübəli və bilikli müəllimlərin olduğunu göstərir. Problem isə onların bölgələrdə yerləşdirilməsi və sosial şəraitin buna uyğun olmamasındadır".

### SOSİAL AMİLLƏR

Elmin Nuri qeyd edir ki, kənd məktəblərində müəllim çatışmazlığı probleminin kökündə daha çox sosial amillər dayanır: "Ucqar kəndlərə müəllim göndərilməsi çətin məsələdir. Çünki bu bölgələrdə iqlim, yol və yaşayış şəraiti müəllimlərin orada uzun müddət işləməsinə imkan vermir. Digər tərəfdən, bu bölgələrə gedən müəllimlərin əksəriyyəti qadınlardır və onların bu şəraitə adaptasiyası daha çətin olur. Bu baxımdan müəllimlərin ucqarlara getməməsi tamamilə anlaşılan bir vəziyyətdir".

### "YAŞ LİMİTİ ARADAN QALDIRILMALIDIR"

Elmin Nuri hesab edir ki, H1 və H2 stimullaşdırıcı proqramlarında dəyişiklik edilməlidir: "Hazırda H1 həvəsləndirmə tədbiri rayon mərkəzindən 20 km uzaqda çalışan müəllimlərə, H2 isə 40 km uzaqda olanlara şamil edilir. Lakin bu dəstək yalnız 35 yaşa qədər olan müəllimlər üçün keçərlidir. Hesab edirəm ki, yaş limiti aradan qaldırılmalıdır".

Ekspert əlavə edir ki, stimullaşdırıcı tədbirlər daha cəlbedici edilməlidir: "Müəllimlərin ucqar bölgələrdə çalışması fədakarlıq tələb edir. Ona görə də bu fədakarlıq dəyərləndirilməli və H1, H2 proqramlarına əlavə maliyyə bonusları, güzəştlər və sosial dəstək paketləri daxil edilməlidir".

## "SİSTEMLİ YANAŞMA YOXDUR"

ADPU-nun Təhsildə Təhlil və Kommunikasiyalar Mərkəzinin direktoru Kamran Əsədovun fikrincə, bu məsələ ilə bağlı sistemli yanaşma yoxdur. Nəticədə hər il vəziyyət daha da ağırlaşır: "Məsələn, 2023-cü il üzrə müəllimlərin işə qəbulu ilə bağlı açıqlanan rəqəmlər də bu fərqi təsdiqləyir. Bakı və Abşeron zonasında bir vakansiyaya orta hesabla 7 namizəd düşür. Amma Qax, Lerik, Kəlbəcər, Yardımlı, Balakən kimi rayonlarda bəzi fənlər üzrə heç bir namizəd müraciət etmir. Bu isə təkcə vakansiyaların dolmaması ilə yox, eyni zamanda həmin məktəblərdə tədrisin keyfiyyəti ilə bağlı ciddi suallar doğurur".

Mütəxəssis qeyd edir ki, dünyada müəllimlərin ucqar bölgələrə cəlb olunması üçün kifayət qədər müsbət təcrübələr mövcuddur: "Məsələn, Finlandiya və Cənubi Koreyada regionlarda müəllim çatışmazlığı problemi "qapalı məktəb" və "dövlət mentorluğu" modelləri ilə həll olunur. Bu sistemlər təkcə maddi deyil, mənəvi və peşəkar dəstəyi də əhatə edir. Azərbaycanda isə Elm və Təhsil Nazirliyi bu yanaşmanı tamamilə nəzərdən qaçırır".

Ekspert vurğulayır ki, müəllim çatışmazlığının aradan qaldırılması üçün ilk növbədə nazirlik regionlar üzrə "təhsil risk zonaları xəritəsi" hazırlamalıdır: "Bu xəritə müəllim ehtiyacını illik proqnozlar əsasında göstərməli, ali məktəblərə qəbul planları bu xəritəyə uyğun tənzimlənməlidir. Ucqar bölgələrdə müəllimlik üzrə təhsil alan tələbələrə xüsusi təqaüdlər və müqavilə ilə bölgələrdə işləmək öhdəliyi verilməlidir. Eyni zamanda, regionlarda müəllimlər üçün sosial paket – yaşayış, nəqliyyat, kommunal güzəştlər, ailə dəstəyi, peşəkar inkişaf hüquqları sistem halına salınmalıdır".

### STATİSTİKA NƏ DEYİR?

Hazırda Azərbaycanın ümumi təhsil müəssisələrində 20 mindən çox gənc müəllim çalışır. Son 5 ildə 18 min 136 müəllim işə qəbul olunub.

2023/2024-cü tədris ili üzrə müəllimlərin işə qəbulu müsabiqəsində 6081 gənc müəllim uğur qazanaraq ümumi təhsil müəssisələrinə işə qəbul edilib. Həmin müəllimlərdən 2967-si müddətsiz, 3114-ü isə müddətli müqavilə ilə təyin olunub. 3543 gənc müəllim isə həvəsləndirmə tədbirləri tətbiq edilən kənd məktəblərinə göndərilib. Onlardan 1768-i H1, 1775-i isə H2 tətbiq edilən məktəblərə qəbul olunub.

# QIZIL İXRACINDA REKORD ARTIM




**Qızıl ixracımızın artması həm yüksək qiymət, həm də yerli hasilatın genişlənməsi ilə əlaqədardır. Bu sahəyə dövlət tərəfindən də dəstək göstərilir. Lakin ixracın davamlı olması üçün yeni yataqlar kəşf olunmalıdır.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanın qızıl ixracında artım müşahidə edilir. Bu ilin yanvar-may ayları ərzində ölkədən 121.3 milyon ABŞ dolları dəyərində qızıl ixrac edilib. Bu, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 2.7 dəfə və ya 76 milyon ABŞ dolları çoxdur. Cari ilin may ayı ərzində Azərbaycandan 25.9 milyon ABŞ dolları dəyərində qızıl ixrac edilib. Bu isə illik müqayisədə 86.3 faiz çoxdur. Bəs bu sahədə gələcək perspektivlərimiz necədir? İxracdakı artım tempini gələcəkdə də qorumaq mümkündürmü?

### "HASİLAT DA ARTIR, QİYMƏTLƏR DƏ"

Azərbaycan Zərgərlər Assosiasiyası İdarə Heyəti sədrinin müavini, "Qiymətli metallar və qiymətli daşlar" standartlaşdırma üzrə Texniki Komitənin sədri Rövşən Əmircanovun sözlərinə görə, son beş il ərzində ölkəmizdə qızıl ixracı ardıcıl yüksələn xətt nümayiş etdirir və 2025-ci ilin ilk yarısında rekord səviyyəyə çatıb. Azərbaycandan ixrac olunan qızılın dəyərindəki bu artım ilk növbədə dünya bazarlarında qiymətli metalların, xüsusilə də qızılın qiymətində baş verən yüksəlişlə izah olunur: "Son iki ildə qızılın qiymətinin rekord səviyyəyə çatmasına geosiyasi qeyri-sabitlik, beynəlxalq ticarət münaqişələri, maliyyə bazarlarında qeyri-müəyyənlik, ABŞ dollarının zəifləməsi, həmçinin mərkəzi banklar və iri investorlar tərəfindən artan tələbat əsas təsir göstərən amillər olub. Nəzərəçarpacaq qiymət artımı 2025-ci ilin iyun ayının əvvəlində müşahidə olunub. Bu dövrdə qızılın qiyməti qısa müddət ərzində unsiyaya görə 3400 ABŞ dollarına qədər yüksəlib. Sonradan bazarda müəyyən tənzimlənmə baş verdi və hazırda qiymət 3340–3350 ABŞ dolları intervalında ticarət olunmaqdadır. Sözügedən artım ixracın ümumi dəyərinə birbaşa müsbət təsir göstərib".



Rövşən Əmircanov

### TEXNOLOJİ YENİLİKLƏRİN TƏSİRİ

Sədrin fikrincə, digər mühüm amillərdən biri ölkədə qızıl hasilatının həcminin də artmasıdır: "Müvafiq şirkətlər tərəfindən son illərdə həyata keçirilən texnoloji yeniliklər və genişmiqyaslı geoloji kəşfiyyat işləri nəticəsində bir neçə yeni yataq istismara verilib. Yeni ehtiyatların istismara cəlb edilməsi, eləcə də hasilat və emal proseslərinin səmərəliliyinin artırılması qızıl hasilatında artıma səbəb olub. Bu da dolayısı ilə ixracın həm həcminə, həm də ümumi dəyərinə müsbət təsir göstərib. Nəticə etibarilə, görülən tədbirlər ölkənin ümumi ixrac potensialının artmasına töhfə verib".

## DÖVLƏT TƏRƏFİNDƏN GÖRÜLƏN İŞLƏR

R.Əmircanov bildirdi ki, mövcud artım tempinin qorunması və davamlı inkişafının təmin edilməsi məqsədilə kompleks və məqsədyönlü tədbirlər həyata keçirilir: "Bu tədbirlər çərçivəsində ilk növbədə yeni yataqların mərhələli şəkildə istismara verilməsi, hasilat və emal proseslərinin müasir texnologiyalar əsasında optimallaşdırılması, eləcə də istehsal proseslərinin rəqəmsallaşdırılması xüsusi əhəmiyyət daşıyır. Bununla yanaşı, emal müəssisələrində enerji səmərəliliyinin artırılması, yaşıl texnologiyaların tətbiqi və ekoloji standartlara uyğunlaşma istiqamətində də mühüm addımlar atılır. Sözügedən yanaşma bir tərəfdən istehsalat xərclərinin azaldılmasına, digər tərəfdən isə ixrac məhsullarının beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin və əlavə dəyərinin artırılmasına xidmət edir".

Müsahibimizin sözlərinə görə, dövlət səviyyəsində ixracın təşviqi məqsədilə vergi və gömrük sahəsində stimullaşdırıcı mexanizmlər tətbiq olunur. O cümlədən, əlavə dəyər vergisinin qaytarılması və ixrac prosedurlarının sadələşdirilməsi kimi alətlər ixrac prosesinin dayanıqlılığını artıran əsas vasitələrdən sayılır: "Eyni zamanda, Azərbaycanın ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə hədəf ölkələr üzrə sistemli bazar araşdırmaları aparılır, regional və beynəlxalq ticarət platformalarında fəal iştirak təmin edilir".

### "YENİ BAZARLARA ETİBARLI ÇIXIŞ TƏMİN EDİLƏCƏK"

R.Əmircanovun fikrincə, gələcəkdə ixrac potensialımız daha da artacaq: "Sadalanan kompleks addımlar mövcud artım tempini qorumaqla yanaşı, Azərbaycanın qızıl ixracında dayanıqlı və rəqabətədavamlı mövqeyini möhkəmləndirəcək, orta və uzun müddətdə yeni bazarlara etibarlı çıxışı təmin edəcəkdir. Gələcək mərhələlərdə hasilat həcminin ardıcıl şəkildə artırılması, ixracın ümumi dəyərinin yüksəldilməsi, eləcə də xammal məhsulları ilə yanaşı, zərgərlik məmulatlarının da ixrac strukturunda payının əhəmiyyətli dərəcədə artacağı nəzərdə tutulur".



## "ÖLKƏDƏ YENİ QIZIL YATAQLARININ KƏŞFİNƏ EHTİYAC VAR"

İqtisadçı Emin Qəribli də düşünür ki, qızıl ixracının artması üçün bütün imkanlar mövcuddur: "Qızıl ixracının və dəyərinin artmasının müxtəlif səbəbləri var. 2023-2024-cü illərdə hasilat artdı. Xüsusən 2024-cü ilin sonunda artımı daha çox görə bildik. Yeni yataqlar kəşf olundu. Həmin yataqlardan da qızıl hasil etməyə başladılar. İkinci səbəb qiymətin artmasıdır. Son dövrlər qızılın qiymətində ciddi artımlar görürük. O səbəbdən hasilatı daha da artırdılar. Qanunvericilikdə ixracatın stimullaşdırılması üçün prosedurlar da asanlaşdırılıb".

E.Qəriblinin sözlərinə görə, hazırda imkanlar geniş olsa da, yeni yataqlar tapmağa ehtiyac var: "İxracın artması yaxşıdır. Qısamüddətli dövrdə bugünkü yataqları nəzərə alaraq ixracda artım templəri gözlənilir. Buna həm resurslarımız, həm də qiymətin stabilliyi imkan verir. Amma hər bir halda qızıl tükənən resursdur. Bu tendensiyanın davamlı olması üçün yataqlar səmərəli istifadə olunmalı, ekoloji standartlara əməl edilməlidir. Gələcəkdə yeni yataqların kəşfinə ehtiyac var. Çünki qızıl həm ixrac məhsulu, həm də ehtiyat kimi vacibdir. İşğaldan azad olunan ərazilərdə də yataqlarımız mövcuddur. Bu da o deməkdir ki, gələcəkdə hasilat daha da artacaq".



Emin Qəribli

# KEYFİYYƏTLİ DONDURMANI NECƏ SEÇƏK?



Az şəkərli, qatqısız, süni rəngləndirici və aromatizatorsuz dondurmalar uşaqlar üçün daha təhlükəsizdir. Həmçinin bəzi uşaqlarda laktoza həssaslığı ola bilər. Bu hallarda laktozasız dondurmalar daha uyğun seçim sayılır.

Yay aylarında insanların ən çox istehlak etdiyi məhsullardan biri də dondurmadır. Xüsusilə, isti havalarda insanların sərinləmək üçün ilk seçimi bu qida olur. Lakin dondurma seçərkən yalnız dadına deyil, tərkibinə, saxlanma şəraitinə və gigiyenik qaydalara da xüsusi diqqət yetirilməlidir.

### "BU, MƏHSULUN KEYFİYYƏTİNİ POZUR"

Qida təhlükəsizliyi üzrə konsaltinq xidmətləri göstərən Seymur Qafarov "Kaspi" qəzetinə açıqlamasında yay aylarında dondurma istehlakı zamanı sağlamlıq baxımından diqqət olunmalı məqamlara toxunub. Mütəxəssis vurğulayıb ki, dondurma alarkən onun "soyuq zəncir" şəraitində saxlanılıb-saxlanılmadığına xüsusi diqqət yetirilməlidir: "Dondurma heç vaxt əriməməli və sonradan yenidən dondurulmamalıdır. Bu hal məhsulun keyfiyyətini və təhlükəsizliyini ciddi şəkildə poza bilər. Eyni zamanda, məhsulun üzərindəki etiketlər tam, aydın və oxunaqlı olmalı, tərkibi, istehsal və son istifadə tarixi, saxlanma şəraiti kimi məlumatlar diqqətlə yoxlanılmalıdır. Gigiyenik olmayan şəraitdə satılan dondurmalardan mütləq uzaq durmaq lazımdır".

### SAXLANMA ŞƏRAİTİNDƏ HANSI RİSKLƏR MÖVCUDDUR?

Mütəxəssis vurğulayır ki, dondurmanın tərkibindəki trans yağlara və "E" kodlara (Qida məhsullarında istifadə olunan qida əlavələrini təyin etmək üçün Avropa Birliyi tərəfindən verilən bir koddur. Bu kodlar hər bir qida əlavəsinin təhlükəsizliyinin təsdiqləndiyini bildirir) qarşı diqqətli olunmalıdır: "Həmçinin körpələr üçün süni qatqılar, stabilizatorlardan istifadə olunaraq ərsəyə gələn məhsullardan uzaq durulmasında fayda vardır. Bu cür məhsulların daxilində yüksək şəkərin olması sağlamlıq üçün risklidir. Bir digər risk faktoru isə məhsulun düzgün temperaturda saxlanmamasıdır. Dondurma mütləq -18°C temperaturdan aşağı şəraitdə saxlanılmalıdır. Əks halda, məhsulun tərkibi pozula, mikroorqanizmlərin inkişafı üçün əlverişli şərait yarana bilər ki, bu da sağlamlıq üçün təhlükəlidir".

### "ÜRƏK-DAMAR XƏSTƏLİKLƏRİ RİSKİNİ ARTIRIR"

Qida mütəxəssisi bildirir ki, tərkibində trans yağlar olan dondurmalar təhlükə mənbəyidir: "Trans yağlar və süni qatqılar ürək-damar xəstəlikləri riskini artırır, immun sisteminə mənfi təsir edir, allergik reaksiyalara səbəb ola və uzunmüddətli istifadədə müxtəlif xroniki xəstəliklərə zəmin yarada bilər. Bu maddələr uşaqların sağlam inkişafına da mənfi təsir göstərə bilər. Əsl dondurma əsasən təbii komponentlərdən - süd, qaymaq, şəkər kimi maddələrdən hazırlanır. "Dondurulmuş desert" isə bu əsas inqrediyentlərlə yanaşı, bir sıra digər qatqı maddələrini özündə ehtiva edir".



Seymur Qafarov

### Uşaqlar üçün təhlükəsiz dondurma hansıdır?

Uşaqlar üçün hansı növ dondurmaların uyğun olduğu barədə danışan həmsöhbətimiz qeyd edir ki, meyvə püresi, süd və qatıq əsaslı dondurmalar daha münasib seçimdir: "Az şəkərli, qatqısız, süni rəngləndirici və aromatizatorsuz dondurmalar uşaqlar üçün daha təhlükəsizdir. Həmçinin bəzi uşaqlarda laktoza həssaslığı ola bilər. Bu hallarda laktozasız dondurmalar daha uyğun seçim sayılır".

### DONDURULMUŞ PAKETLİ MƏHSULLAR MİKROB MƏNBƏYİDİR?

Adətən uşaqlıqda yediyimiz, küçə kənarlarında, səyyar maşınlarda satılan açıq dondurmaların mikrob daşıyıcısı olduğu düşünülürdü. Amma türk professor Ahmet Rasim Küçükusta mikroblarla bağlı iddialara əks-arqumentlə cavab verib. O qeyd edib ki, ən böyük mikrob mənbəyi dondurulmuş paketli məhsullardır. O, bəzi xarici ölkələrdə dondurulmuş fast-food tipli məhsulların geri çağırıldığını bildirib: "Emal olunmuş un, şəkər, trans yağlar və əlavə maddələrlə hazırlanan "mühəndislik məhsulu" paketlənmiş dondurmalar və digər qidalar xroniki xəstəliklərin əsas səbəblərindəndir".

### ADI ŞİRİN OLSA DA...

Diyetoloq Esra Kula da deyir ki, dondurmanın adı şirin olsa da, hər dondurma sağlam deyil: "Bəzi paketli dondurmaların tərkibində real süd və təbii şəkər olmadığı üçün həm sağlamlığa zərərlidir, həm də çəki artımına səbəb olur. Bu dondurmalardansa, evdə hazırlanan alternativ qidalar daha faydalıdır. Qatıq, yulaf və təbii meyvələrlə hazırlanmış ev dondurmaları daha sağlamdır. Hətta bu dondurmalar klassik dondurma dadına tam uyğun gəlməsə də, uşaqlara və kilo vermək istəyən böyüklərə soyuq və faydalı qəlyanaltı kimi təqdim edilə bilər".

### HİPOTERMİYA, SİNİR RESEPTORLARININ QICIQLANMASI...

Bəzi mütəxəssislər isə hesab edirlər ki, isti havalarda dondurma yemək təhlükəlidir. Bioloq Aleksandr Sozykin bildirir ki, isti havada çox soyuq dondurma qəbul etmək ağız boşluğundakı selikli qişanın lokal soyumasına, yəni hipotermiyaya səbəb olur. Bu da immun hüceyrələrinin fəaliyyətini zəiflədir: "Normalda ağız boşluğunda olan mikroblar immun sistem tərəfindən nəzarətdə saxlanılır. Amma müdafiə zəiflədikdə bu mikroorqanizmlər sürətlə artır və müxtəlif infeksiyalara yol aça bilər. Nəticədə boğazda ağrı, şişkinlik və virus xəstəlikləri ortaya çıxır. Bu səbəbdən mütəxəssislər isti havalarda dondurmanı birdən-birə çox soyuq halda yeməməyi tövsiyə edirlər".

Bioloqun sözlərinə görə, çox isti havada dondurma yeməyin başqa bir mənfi təsiri də sinir reseptorlarının qıcıqlanmasıdır: "Bədən yüksək temperaturda olanda ağız boşluğunun, xüsusilə damağın qəfil soyuması beyin damarlarında spazmaya səbəb ola bilər. Bu isə öz növbəsində qəfil və şiddətli baş ağrısı ilə nəticələnə bilər".

NAĞIL BİR VAXTLAR YALNIZ UŞAQLAR ÜÇÜN DEYİLDİ, HƏM DƏ BÖYÜYƏN İNSANIN YOL YOLDAŞI İDİ

# BİRİ VAR İMİŞ, BİRİ YOX İMİŞ...

**Nağıllar bütün duyğu orqanlarını, yaradıcı işarələri işə salır, balacaların hələ kamilləşməmiş potensial imkanlarını bir araya cəm edib fərqli estetik çevrə yaradır. Bəlkə də nağıllar uşaqların estetik dünya ilə ilk təmasıdır.**



XANIM AYDIN

"Nağıl danış mənə!"... Çox uşağın gecə yuxuya getməzdən əvvəl analarından istəyidir bu. Amma çox vaxt bu sadə istək təkcə uşağa deyil, onu danışan böyüyə də ünvanlanır. Çünki nağıl həm uşağın təxəyyül dünyasını bəsləyən fantaziya, həm də böyüyün yaddaşının dərin qatlarına toxunan bir çağırışdır. Nağıl mifdir, folklordur, milli-genetik kodumuzun əks olunduğu prosesdir. Amma o, həm də bir uşaq şirinliyi, bir xalqın həyat fəlsəfəsidir.



### UŞAQLARIN ESTETİK DÜNYA İLƏ İLK TƏMASI

Hər hekayənin fonunda cəmiyyətin sualları, vicdanın səsi, yaddaşın çəkisi gizlənir. Məhz bu səbəbdən nağıl nə vaxtsa yalnız uşaqlar üçün deyildi, həm də böyüyən insanın yol yoldaşı idi.

Nağıllar bütün duyğu orqanlarını, yaradıcı işarələri işə salır, balacaların hələ kamilləşməmiş potensial imkanlarını bir araya cəm edib fərqli estetik çevrə yaradır. Bəlkə də nağıllar uşaqların estetik dünya ilə ilk təmasıdır. Təhtəlşüurda yer almış nağıl presonajları oradan rəsmə, yazıya, yaxud musiqi notlarına köçürülməklə balacaların mənalar dünyasını yaradır. Onlar özünü kiməsə bənzədərək böyüyür, xəyallarındakı qəhrəmana doğru yol alırlar.

### BÖYÜKLƏR ÜÇÜN FƏLSƏFƏ

Nağıllar ikili struktura malikdir: səthdə uşağı əyləndirən sadə süjet, dərinlikdə isə böyüyü düşündürən simvolizm. Bu ikili təbiət onları həm əyləncəli, həm də təlimverici edir.

Məsələn, Cırtdan - balaca, zəif, amma məğlubedilməz, əslində uşaq gözü ilə qəhrəman, böyük üçün isə ağıl və cəsarətin təcəssümüdür. Divin nəhəngliyi fiziki qorxunu, Cırtdanın cəsarəti isə mənəvi gücü simvollaşdırır. Burada çatdırılan əsas mesaj sadədir: ölçü və görünüş yox, mahiyyət və düşüncə qalib gəlir.

"Tülkü və keçi" nağılında da bu simvolizm açıq görünür. Tülkü ağlı, hiyləni, keçi isə sadəlövhlüyü və saf niyyəti təmsil edir. Amma həyatın sərt qanunları nağılda öz yerini tapır: ağıllı xilas olur, saf niyyətlə hərəkət edən isə cəzalanır. Bu, uşağa "ehtiyatlı ol" deməkdirsə, böyüyə "yalnız niyyət kifayət etmir, düşünmək də lazımdır" mesajıdır.



## XALQIN ÖZÜ İLƏ APARDIĞI DİALOQ

Azərbaycan xalq nağılları - sadəcə əyləncə vasitəsi deyil, xalqın özü ilə apardığı dərin bir dialoqdur. Onlar xalqın mənəvi dəyərlərini qoruyur, formalaşdırır və ötürür.

Nağılın sonunda deyilən "Göydən üç alma düşdü..." ifadəsi isə bir şirin epiloq yox, bir dünya baxışıdır. Nağıl bizə hazır cavab vermir, yalnız yön göstərir. O, mühakimə etməz, düşündürər. Qadın obrazları isə nağıllarda xüsusilə güclü və çoxşaxəlidir. Ana - şəfqət, nənə - hikmət, cadugər - qorxu və sirr, ağıllı qız - dəyişimin açarıdır.

### RƏQƏMSAL DÖVRDƏ KLASSİK NAĞILIN DİRƏNİŞİ

Bu gün uşaqlar ekran, smartfon, planşet qarşısında böyüyür, süni intellektlərlə ünsiyyət qurur. Amma nağıl hələ də uşaq təxəyyülünün doğma dilidir. Sadəcə, böyüklər nağıl danışmağı yaddan çıxarıb. Halbuki nağıl yalnız uşaq üçün deyil, ailənin iç ünsiyyətidir. Uşaq psixoloqları da bunu təsdiqləyir: nağıl həm tərbiyə, həm bağ yaratmaq vasitəsidir. Valideyn nağıl söylədikcə uşaqla danışır, ona öz iç dünyasını, qorxularını, ümidlərini, dəyərlərini ötürür. Bu baxımdan, nağıl həm tərbiyə metodudur, həm də sevgi dilidir.

Filologiya elmləri doktoru, ədəbiyyatşünas, tənqidçi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Uşaq ədəbiyyatı" şöbəsinin müdiri, millət vəkili Elnarə Akimova da deyir ki, nağıl yazan da, onu danışan da inanır ki, bununla uşaqlara tərtəmiz bir dünya yaradır: "Bu yaradıcı aləmdə böyüyən uşağın təfəkkür üfüqləri geniş, zəngin olacaq. Digər məsələ də var. Nağılla başlanan yolçuluq özündə yaddaş kodlarını daşıyacaq qədər sakral olacaq. Çünki "mifopoetik təfəkkürdən çağdaş zamana keçid mərhələsinin ən etibarlı məxəzidir nağıllar. Y.V.Çəmənzəminli demiş, "bu mədəniyyətin əsrarını bilmək üçün nağıl və əfsanələri unutmamaq lazımdır".

## NAĞIL DANIŞMAQ XATIRLAMAQ, ÖTÜRMƏK VƏ QORUMAQ DEMƏKDİR



Elnarə Akimova

Nağıl xalqın vicdan səsi, tarixin poetik yaddaşı, əxlaqın kodlaşdırılmış formasıdır. Nağıl danışmaq xatırlamaq, ötürmək və qorumaq deməkdir.

Nağılların sonu həmişə yaxşı bitir. Haqq, ədalət, sevgi qələbə çalır. Bəlkə ona görə ki, uşaqlar qaranlıqdan qorxurlar, onlar üçün işıq, çıxış yolu həmişə olmalıdır. Nağıllarımızdakı "işıq gələn, yoxsa it hürən tərəf" ziddiyyətinin uşaqların xeyrinə həll olunmasının sirri də elə bundadır. Çünki onlar belə olacağına inanırlar! Qoy hər kəs inansın və onun həyat nağılı işıqlı olsun!

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
9 AVQUST ŞƏNBƏ 2025








# YENİYETMƏ GÜLƏŞÇİLƏRİMİZİN AFİNA SINAĞI

**Güləşçilərimizin Afinadakı nəticələrini qənaətbəxş hesab etmək olar. İdmançılarımızın yeddi dəfə fəxri kürsüyə qalxması bunu deməyə əsas verir. Lakin əldən çıxan bir neçə fürsətin olduğu da qeyd edilməlidir.**

Azərbaycanın yeniyetmə güləşçiləri Yunanıstanın paytaxtı Afinada keçirilən dünya çempionatında ölkəmizi uğurla təmsil etməyi bacardılar. Ellada torpağına geniş heyətlə yollanan millimiz yunan-Roma və sərbəst güləşdə həm qızıl, həm də digər aşağı əyarlı medallarla azarkeşləri sevindirdilər.

### MUNDİALDA 23 PƏHLƏVANLA

İyulun 28-dən avqustun 3-dək davam edən mundiala Azərbaycan komandası 23 güləşçi ilə qatıldı. Pəhləvanlarımızdan onu yunan-Roma güləşində, onu sərbəst güləşdə, üçü isə qadın güləşində mübarizə apardılar. Yarışa yunan-Roma güləşçiləri start verdilər. Abdurrahman Hüseynli, Qurban Məcnunov, Hikmət Haqverdiyev, Nihat Bəhmənov, Əli Nəzərov, Hüseyn İsgəndərov, Yusif Əhmədli, Nicat Yeylaqaliyev, Səid Paşayev və Rihad İbrahimli uğur qazanmağa çalışdılar. Daha sonra yeniyetmə qızlarımız - Nəzrin Əhmədli, Fatimə Bayramova və Esra Məmmədli xalça üzərinə çıxdılar.

Yarışın son günlərində isə sərbəst güləşçilər mübarizəyə qoşuldular. Sadiq İsmayılov, Rəvan Həsənzadə, Ramal Mirhüseynov, Ruslan Əlizadə, Həsən Həsənov, Hüseyn İsmayılov, Rəşad Veysəlov, Nihad Süleymanlı, Səid Paşayev və Hakim Tağıyev çıxış etdilər.

Yunan-Roma güləşçilərimiz Afinada ölkəmizi layiqincə təmsil etməyi bacardılar. "Klassiklər" mundialda bir dəst medal qazanıblar: bir qızıl, bir gümüş və bir bürünc medal.

45 kq çəki dərəcəsində yarışan Abdurrahman Hüseynli son qarşılaşmada ukraynalı Timur Məhərrəmova tam üstünlüklə (9:0) qalib gələrək bürünc medala yiyələnib. 51 kq-da çıxış edən Hikmət Haqverdiyev daha böyük uğur əldə edib. Finala qədər bütün rəqiblərinin kürəyini yerə vuran idmançımız yalnız həlledici qarşılaşmada büdrəyib. Burada o, özbəkistanlı Otabek Tursunova 1:4 hesabıyla məğlub olub və gümüş medalı boynundan asıb. Ən yaxşı nəticəni isə Əli Nəzərov qazanıb. 60 kq çəki dərəcəsində çıxış edən yeniyetmə güləşçi finala qədər rəqib tanımayıb. Qızıl medal uğrunda görüşdə qırğızıstanlı Amangəldi Ysakbayevlə qarşılaşan Əli rəqibini 6:1 hesabıyla üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib.Yunan-Roma güləşçilərimiz ümumilikdə 100 xal toplayaraq, komanda hesabında Qırğızıstanla 4-5-ci yerləri bölüşüblər.

## SƏRBƏST GÜLƏŞÇİLƏRİMİZDƏN DÖRD MEDAL

Sərbəst güləşçilərimiz isə medal sayına görə daha yaxşı nəticə göstərməyi bacarıblar. Komandamız Afinadan biri qızıl, üçü bürünc olmaqla ümumilikdə dörd medalla qayıdıblar. Əvvəlcə 110 kq-da yarışan Hakim Tağıyev bürünc medal əldə edib. O, təsəlliverici görüşdə ermənistanlı Laert Movsesyana heç bir şans tanımayıb – 13:4. Milli üzvü həlledici qarşılaşmada bolqarıstanlı Stefan Stefanova sonuncu xal prinsipinə əsasən (1:1) qalib gələrək bürünc medalı boynundan asıb.

## YEGANƏ "QIZIL"I HÜSEYN ƏLDƏ EDİB

Yarışın son günündə Həsən Həsənov (60 kq) təsəlliverici görüşlərdə yunanıstanlı Pavlos Ntiantiadislə qırğızıstanlı Ulukman Jekşenkulov (7:2) üzərində inamlı qələbə qazanıb.

Həmyerlimiz həlledici qarşılaşmada kanadalı Natan Naşı minimal fərqlə (5:4) üstələyərək bürünc medal əldə edib. Səid Paşayev (92 kq) isə təsəlliverici görüşdə ukraynalı Samir İbişovdan güclü olub - 2:0. Avropa çempionumuz bürünc medal uğrunda qarşılaşmada isə qazaxıstanlı Beibaris Yerqaliyə 5:3 hesabıyla qalib gələrək dünya üçüncüsü olub. Sərbəst güləşdə yeganə "qızıl"ı Hüseyn İsmayılov əldə edib. 65 kq çəki dərəcəsində yarışan pəhləvanımız həlledici qarşılaşmada amerikalı Arseni Kikinyovla üz-üzə gəlib. Rəqibinə sonuncu xal prinsipinə əsasən (1:1) qalib gələn həmyerlimiz dünya çempionu olub. Beləliklə, Azərbaycan 90 xalla komanda hesabında dördüncü pillədə qərarlaşıb və ilk "üçlüy"ü qapayan Qazaxıstandan cəmi bir xal geri qalıb. ABŞ 154 xalla dünya çempionu olubsa, İran 150 xalla ikinci yeri tutub.



## MEDAL SAYI DAHA ÇOX OLA BİLƏRDİ

Ümumilikdə, güləşçilərimizin Afinadakı nəticələrini qənaətbəxş hesab etmək olar. İdmançılarımızın yeddi dəfə fəxri kürsüyə qalxması bunu deməyə əsas verir. Lakin əldən çıxan bir neçə fürsətin olması təəssüf doğuran məqamdır. Xüsusən, Yusif Əhmədli, yunan-Roma güləşçisi Səid Paşayevin medalın bir addımlığında büdrəməsi mükafatçılarımızın sayının daha artıq olmasına imkan verməyib. Bundan əlavə, medalların əsasən yüngül çəkidə gəlməsi də diqqət çəkir. Çəki artdıqca nəticələr zəifləyir. Bu da gələcəkdə ağır çəkilərdə yerli idmançı çatışmazlığına, nəticə etibarilə legioner asılılığına səbəb ola bilər. Məhz bu yaş kateqoriyasında ağır çəkilərdə idmançı hazırlığına daha çox diqqət ayrılmalıdır.

Qazanılan nəticələr Azərbaycan güləşinin gələcəyinin etibarlı əllərdə olduğunu göstərir.